DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (366) / APREL 2022-Cİ İL



Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.

**Prezident İlham Əliyev**
Dünya Azərbaycanlılarının
V Qurultayındakı nitqindən
Şuşa şəhəri, 22 aprel 2022-ci il

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

**Hörmətli həmvətənlər!**

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları xeyirxah əməllərə, birlik və bərabərliyə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynamışdır. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, haqq işi uğrunda mübarizədə qazandığımız şanlı Zəfərlə azad edilmiş dədə-baba yurdlarımızda həyat yenidən dirçəldilir, tarixi-mədəni irsimiz, ibadət yerlərimiz bərpa olunur, məscidlərimizdən azan sədaları yüksəlir.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman şəhidlərimizin ölməz xatirəsini bu mübarək bayram günlərində bir daha ehtiramla yad edir, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə cansağlığı diləyirəm.

**Əziz bacı və qardaşlarım!**

On bir ayın sultanı Ramazan ayını şükranlıq duyğuları və könül xoşluğu ilə yola salırıq. İnanıram ki, ölkəmizin əmin-amanlığı və tərəqqisi naminə etdiyiniz dualar sayəsində Uca Tanrı öz mərhəmətini və şəfqətini xalqımızdan əsirgəməyəcəkdir.

Bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Allah orucunuzu qəbul etsin.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 aprel 2022-ci il

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YENİ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib.

Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu din-dövlət münasibətləri yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülüb və görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir.

Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlətimizin başçısına məlumat verərək bildirdi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. İnstitutda bakalavriat səviyyəsi üzrə "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları, magistratura səviyyəsi üzrə (dinşünaslıq ixtisası üzrə) "Dinin sosiologiyası", "Dinin psixologiyası", "Dinlərin tarixi" və "İslamşünaslıq" ixtisaslaşmaları, doktorantura səviyyəsi üzrə isə (fəlsəfə doktoru üzrə) "Dinşünaslıq", "Dinin tarixi və fəlsəfəsi" ixtisasları tədris olunur.

Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

Qeyd edək ki, Bakının Yasamal rayonunda inşa olunan beşmərtəbəli binada inzibati və sinif otaqları, kitabxana, kişilər və qadınlar üçün ayrı-ayrılıqda namaz otaqları, həmçinin dəstəmaz və mətbəə otaqları yaradılıb.

Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.





## AZƏRBAYCANDA DİNİ QURUMLARA MALİYYƏ YARDIMI GÖSTƏRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür. Dünyada nümunəvi tolerantlıq məkanına çevrilmiş ölkəmizdə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunub saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşdirilməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği və təşviqi cəmiyyətdə milli-mənəvi həmrəyliyin güclənməsinə və qarşılıqlı anlaşma münasibətlərinin ahəngdar inkişafına xidmət edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 aprel 2022-ci il

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Azərbaycan, tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü ölkəmizdə ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq və qardaşlıq münasibətləri formalaşmışdır. Cəmiyyətimizdə etnomədəni rəngarəngliyin, zəngin multikultural dəyərlərin, çoxəsrlik tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Müxtəlif xalqların mədəni irsinə hərtərəfli diqqət və qayğının təmin edildiyi Azərbaycan nümunəvi dövlət – din münasibətlərinin mövcud olduğu nadir ölkələrdəndir. Belə bir milli-mənəvi həmrəylik şəraitində xristian həmvətənlərimiz öz adət-ənənələrini, dini inanclarını, dil və mədəniyyətini yaşadır, vətəndaşlıq borcunu layiqincə yerinə yetirərək, ictimai-siyasi, sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edirlər.

Əziz dostlar!

Hər il Azərbaycanda təntənə ilə bayram etdiyiniz Pasxa yeniliyin, dirçəlişin, mərhəmət və şəfqət duyğularının təcəssümüdür. Bu əziz gündə hamınıza bir daha xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 aprel 2022-ci il

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA RƏSMİ İNSTAQRAM SƏHİFƏSİNDƏ PASXA BAYRAMI MÜNASİBƏTİLƏ PAYLAŞIM EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Pasxa bayramı münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hamıya möhkəm cansağlığı, xoş duyğular və uzun ömür arzulayıram! Qoy hər bir Azərbaycan vətəndaşının həyatında nurlu, xoşbəxt günlərin sayı çox olsun! Uca Tanrı bu mübarək bayram günlərində edilən bütün duaları qəbul etsin!".

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ REAL TV-YƏ MÜSAHİBƏ VERİB

Prezident İlham Əliyevin ötən gün yeni binasının açılışında iştirak etdiyi Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti və gələcək hədəfləri ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Real İntervyu"da sualları cavablandırıb.

Komitə sədri müsahibəsində İnstitutun yaradılmasının vacibliyindən danışaraq bildirib ki, ölkəmizdə dini-mənəvi mühitin qorunub saxlanılmasında peşəkar kadrlara olan ehtiyac, eyni zamanda Azərbaycanın İslam dünyasının önəmli mərkəzlərindən biri olması dini təhsilin dövlət nəzarətində və elmi əsaslarla aparılmasını zərurətə çevirmişdir. Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını xalqımızın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı milli kadrların hazırlanması baxımından uzaqgörən addım kimi qeyd edən Komitə sədri, eyni zamanda bu istiqamətdə qəbul edilmiş qərarları dini sahəyə göstərilən diqqətin və qayğının növbəti təzahürü




kimi dəyərləndirib. Qeyd edib ki, təhsil ocağının dərin dünyəvi və dini biliklərə malik kadr hazırlığı istiqamətində qarşıya qoyulmuş vəzifələri yerinə yetirməsi üçün yeni bina ilə təmin edilməsinə ehtiyac yaranmışdı. Komitə sədri Azərbaycan Prezidenti İlham Əliyevin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun Ramazan ayında yeni binasının açılışında iştirakını ölkəmizdə vətəndaşların dini etiqad, vicdan və təhsil hüquqlarına verilən önəmin bariz göstəricisi olduğunu bir daha vurğulayıb.

Həmçinin İnstitutun fəaliyyəti ilə bağlı sualı cavablandıran Komitə rəsmisi təhsil müəssisəsinin Azərbaycanın xarici dini təsirlərdən asılılığını azaltmaq baxımından əhəmiyyətli olduğunu qeyd edib. M.Qurbanlı təhsil ocağının ötən müddət ərzində mühüm nailiyyətlərə imza atdığını, beynəlxalq mübadilə proqramları, yerli və xarici ölkə universitetləri ilə imzalanan ikitərəfli əməkdaşlığa dair memorandumlar və s. tədbirləri reallaşdırdığını diqqətə çatdırıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI HACIQABULDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 28-də Hacıqabul, Biləsuvar, Salyan, Neftçala, Cəbrayıl rayonları və Şirvan şəhərindən olan vətəndaşları qəbul edib.

Qəbuldan öncə Komitə sədri Mübariz Qurbanlı və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbul zamanı Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətlər cavablandırılıb, qaldırılan məsələlərin həlli ilə əlaqədar müvafiq göstərişlər verilib.

Sakinlər vətəndaşların bölgələrdə qəbulu ilə bağlı



Azərbaycan Prezidentinin göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

# BAKIDA ŞƏHİD AİLƏLƏRİ VƏ QAZİLƏR ÜÇÜN İFTAR SÜFRƏSİ AÇILIB

Aprelin 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun təşəbbüsü ilə Heydər məscidində müqəddəs Ramazan ayı münasibətilə şəhid ailələri və qazilər üçün iftar süfrəsi açılıb.

İftar mərasimində DQİDK-nın sədri Mübariz Qurbanlı, Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, şəhid ailələri, qazilər, müharibə veteranları və İlahiyyat İnstitutunun tələbələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər Ramazan ayının insanlar arasında mənəvi saflıq və paklıq ayı olmasını qeyd ediblər. Bildirilib ki, şəhid ailələrinə diqqət və qayğı dövlətimizin siyasətinin prioritet məsələlərindən biridir. Çıxış edənlər dövlətimizin başçısının şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıb, ölkəmizdə həyata keçirilən dövlət-din siyasətindən, Ramazan ayının fəzilətindən bəhs ediblər.

Şəhid ailələrinin üzvləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.



# DÖVLƏT KOMİTƏSİNDƏ QEYDİYYATDAN KEÇMİŞ YENİ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB

Aprelin 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 5 dini icma rəhbərinə qeydiyyatdan keçmək haqqında şəhadətnamələr təqdim olunub.

Tədbir iştirakçılarına Ramazan ayının başlaması münasibətilə təbriklərini çatdıran DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti bu gün onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən qətiyyətlə, böyük uzaqgörənliklə və uğurla davam etdirilir. Dövlət ibadət yerlərini təmir və bərpa edir, dini icmalara xüsusi diqqət və qayğı göstərir. Ölkəmiz bütün sahələrdə qazandığı uğurlarla yanaşı, nümunəvi tolerant mühiti ilə də dünyanın diqqət mərkəzindədir.



Şəhadətnamələri təqdim edən Səyyad Salahlı milli-mənəvi, tolerantlıq dəyərlərimizi daha geniş şəkildə ictimaiyyətə çatdırmağın, maarifləndirmə işini yerlərdə təkmilləşdirməyin önəminə toxunub. Eyni zamanda, dini icma sədrlərinə insanpərvərlik prinsipləri ilə ziddiyyət təşkil edən zərərli fikirlərin, hərəkətlərin qarşısını almaq, rəhbərlik etdikləri icmaların radikalizmə qarşı ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmək, ümummilli maraqlardan çıxış etmək tövsiyə olunub.

Tədbirdə çıxış edən icma rəhbərləri qeydiyyat zamanı DQİDK-da müvafiq sənədlərin hazırlıq prosesindəki işgüzar münasibəti xüsusi vurğulayaraq Prezident İlham Əliyevə Azərbaycanda milli, dini dəyərlərə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Dövlət Komitəsi tərəfindən dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan indiyədək 980 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 943-ü İslam, 37-i isə qeyri-islam (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür.

# CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ SEMİNAR-TRENİNQLƏR KEÇİRİLİB

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında 2022-ci il üçün təsdiq edilmiş birgə Tədbirlər Planı çərçivəsində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, vicdan və dini etiqad azadlığının təmin olunması istiqamətində tədbirlər davam etdirilir.

Növbəti seminar-treninq aprelin 22-də qadın və yeniyetmə məhkumlar üçün yeni inşa edilmiş 4 saylı cəzaçəkmə müəssisəsində və tərbiyə müəssisəsində keçirilib.





Seminar-treninqlərdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Penitensiar Xidmətin əməkdaşları, Dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi Ramil Baxşəliyev, Dinşünaslıq ekspertizası şöbəsinin məsləhətçisi vəzifəsini icra edən Rəşadət Hidayətov, eləcə də Mənəvi Dəyərlərin Təbliği Fondunun əməkdaşı Elgiz İmanlı iştirak ediblər.

Komitə sədrinin birinci müavini Səyyad Salahlı "Xeyirxahlıq, yardım, mərhəmət və doğruluğun insan həyatında rolu" mövzusunda ətraflı çıxış edib.

Vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirici söhbət aparılıb, əxlaq və fəzilətdən, dinin əmr və qadağalarından danışılıb, məhkumların sualları cavablandırılıb.

Tədbirlərin sonunda müəssisələrin kitabxanalarına müxtəlif çeşidli dini təyinatlı kitablar təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ KÖNÜLLÜLƏRLƏ GÖRÜŞLƏR KEÇİRİLİB



Aprelin 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) könüllüləri sədr müavini Səyavuş Heydərovla görüşüblər.

Komitə rəsmisi insanları vahid niyyət ətrafında birləşdirən könüllülüyün həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyi olduğunu bildirib. Vurğulayıb ki, hakimiyyətə gəlişi ilə ölkəmizdə milli-mənəvi dəyərlərə, dinə münasibəti kökündən dəyişən və çağdaş ideologiya formalaşdıran Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli irsi, tövsiyələri ali dəyərlərimizin qorunması üçün hər bir gəncin bəhrələnməli olduğu zəngin məktəbdir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən din siyasəti çərçivəsində dini radikalizm və beynəlxalq terrorizmin təzahürlərinin qarşısının alınmasında, o cümlədən beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi, islamafob meyillərə qarşı mübarizədə dinlərarası dialoq və əməkdaşlığın gücləndirilməsi üzrə fikir mübadiləsi üçün uğurlu platforma yaradılıb.

Səyavuş Heydərov Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, xalqımızın multikultural, tolerant dəyərləri, o cümlədən milli-mənəvi və dini dəyərlərimizin təşviqi, vətəndaşlarımızın yad dini ideologiyaların, xurafat elementlərinin təsirlərindən qorunmalarının vacibliyindən danışıb. Sədr müavini hazırda dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında din amilindən sui-istifadənin xüsusi rol oynadığını qeyd edib. Cəmiyyətdə dini biliklərin yetərsizliyinin insanpərvərlik prinsipləri ilə ziddiyyət təşkil edən zərərli fikirlərin, məzhəbçilik və təriqətçilik kimi mənfi təzahürlərin yayılmasına səbəb olduğunu nəzərə çatdıran Səyavuş Heydərov bu kimi tendensiyalarla mübarizədə ən səmərəli metodlardan birinin din və elmin vəhdəti fonunda maarifləndirmə işinin gücləndirilməsi olduğunu diqqətə çatdırıb və müvafiq istiqamətdə Dövlət Komitəsi tərəfindən görülən işlərdən danışıb.



Sonda Səyavuş Heydərov könüllüləri maraqlandıran sualları cavablandırıb.

* * *

Aprelin 15-də isə "Könüllü fəaliyyət" layihəsinin iştirakçıları DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin iş fəaliyyəti ilə tanış olublar.

Şöbə müdiri Nahid Məmmədov könüllülərə şöbənin vəzifə öhdəlikləri barədə ətraflı məlumat verərək bildirib ki, dinşünaslıq ekspertizası birbaşa ictimai maraqları təmin edir, Dövlət Komitəsinin hüquqlarında da dini təyinatlı ədəbiyyatın, əşyaların, dini məzmunlu başqa məlumat materiallarının istehsalı, idxalı və yayılmasına nəzarət etmək, dini qurumların və müvafiq dövlət orqanlarının müraciətlərinə əsasən qanunvericilikdə nəzərdə tutulmuş qaydada razılıq vermək kimi səlahiyyətləri təsbit olunur.

Nahid Məmmədov ekspertiza prosesi barədə könüllülərə geniş izah verərək qeyd edib ki, ədəbiyyatlarda dini nifrət və düşmənçiliyə rəvac verən fikirlərin olmaması ekspertiza zamanı nəzərə alınan əsas meyarlardandır. Bildirib ki, təqdim edilən ədəbiyyat insanpərvərlik prinsiplərinə zidd deyilsə, dini nifrət və düşmənçiliyə rəvac verəcək, dinlər və məzhəblərarası münasibətlərə xələl gətirəcək fikirlər yer almırsa, ölkəmizdəki mövcud dini duruma, tolerant və multikultural mühitə mənfi təsir göstərəcək ifadələr əks olunmursa, bu kitabın ölkə ərazisində çapı və yayılmasına heç bir qadağa yoxdur.

N.Məmmədov vətəndaşlarımızın sağlam dini ədəbiyyatla təmin edilməsi ilə yanaşı, piratçılığın, vergi hüquqpozmalarının qarşısını alan, əqli mülkiyyət hüquqlarının qorunmasında da faydalı olan dini təyinatlı ədəbiyyat və dini məzmunlu başqa məlumat materiallarının nəzarət markaları ilə markalanması prosesi barədə də könüllüləri maraqlandıran sualları cavablandırıb.

# "DİNİN SİYASİLƏŞDİRİLMƏSİ MİLLİ TƏHLÜKƏSİZLİYİMİZƏ VƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ OLAN TƏHLÜKƏ KİMİ"

Dövlət Sərhəd Xidmətinin (DSX) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə tədbirlər planına uyğun olaraq, aprelin 12-də DSX-nin Akademiyasında "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə olan təhlükə kimi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin aziz xatirəsini yad edib və abidəsi önünə gül dəstələri düzüblər.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxış edərək dini və etnik zənginliyə malik xalqımızın tolerantlıq ənənələrinin dövlət siyasətində uğurla inkişaf etdirildiyini söyləyib. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi, bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsini özündə təcəssüm etdirən azərbaycançılıq məfkurəsinin ölkəmizin tərəqqisində müstəsna rolunu vurğulayıb.



Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizin multikulturalizm, tolerantlıq dəyərləri təbliğ edən ölkələrdən olması, milli-dini birlik ideyasının ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirildiyi, hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunmasına dəstək göstərildiyi qeyd edilib.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə döyüşmələri, "Dəmir yumruq" ətrafında həmrəylik nümayiş etdirmələrinin bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsi olması vurğulanıb.

Seminarda ölkəmizdəki tolerantlıq ənənələrinə, dini etiqadı siyasiləşdirməklə milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə təhlükə yarada bilən meyillərlə mübarizədə hər bir vətəndaşın həssaslıq göstərməsinin vacibliyi qeyd olunub.

Tədbirin sonunda Dövlət Komitəsinin hazırladığı "Mənəvi intibah" sənədli filmi şəxsi heyət tərəfindən izlənilib.

# "AZƏRBAYCANDA VİCDAN AZADLIĞI YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİR"

"Azərbaycanda vicdan azadlığı yüksək səviyyədə təmin edilməklə, bütün dini konfessiyalara bərabərhüquqlu münasibət göstərilir. Hər kəs dini inancına görə sərbəstdir. Bu, bizim dövlət-din münasibətlərinin əsasını təşkil edir".

Bunu "Trend"ə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov deyib.

O qeyd edib ki, İkinci Qarabağ Müharibəsi zamanı erməni işğalçıları, onların siyasi rəhbərləri müharibəyə dini çalar verməyə cəhd etdilər.

"Onlar bunu müsəlman-xristian qarşıdurması kimi dünyaya təqdim etməyə çalışdılar. Qərb ölkələrindən dəstək almaq üçün belə bir yola əl atdılar. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin dünya ictimaiyyətini, aparıcı kütləvi informasiya vasitələrini məlumatlandırması, həmçinin, ölkəmizdə dinlər arasında həmrəyliyin olması ermənilərin bu hərəkətini iflasa uğratdı. Hazırda dünyada mənəvi böhranın olması fikirləri səsləndirilir. Belə bir dövrdə Azərbaycanın yaratdığı bu həmrəylik strategiyası bu böhran üçün bir yol xəritəsi ola bilər", - deyə sədr müavini bildirib.



# AZƏRBAYCANDAKI XRİSTİAN DİNİ İCMALARININ NÜMAYƏNDƏLƏRİ PASXA BAYRAMINI QEYD EDİBLƏR



"Xilaskar" Yevangelik-lüteran kilsəsində xristian dini icmaları Pasxa bayramını qeyd ediblər. "Rəbb İsa Məsihin İzzəti (Üzüm Bağı)" tamaşası ilə başlayan tədbirdə Azərbaycandakı xristian dini icmalarının nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov dini icma nümayəndələrini bayram münasibətilə təbrik edib.

Komitə sədrinin müavini vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu multikultural ənənələrin qorunması və inkişaf etdirilməsi siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Səyavuş Heydərov qeyd edib ki, respublikamız müxtəlif dinlərin və xalqların sülh, əmin-amanlıq və qardaşlıq şəraitində yaşadığı bir ölkədir. Respublikamızın multikultural və tolerantlıq siyasəti bu gün bütün dünyaya bir nümunədir.

Azərbaycan "Bibliya" cəmiyyətinin sədri Rasim Xəlilov ölkəmizin 44 günlük Vətən müharibəsindəki möhtəşəm Qələbəsini xatırladıb. Həmin vaxtlarda Azərbaycan xalqının dilindən və dinindən asılı olmayaraq, vahid məqsəd ətrafında sıx birləşdiyini diqqətə çatdırıb.



Daha sonra pravoslav və katolik kilsələrinin kahinləri, "Həyat sözü" kilsəsinin keşişi, müsəlman icmasının nümayəndələrinin təbrikləri səslənib.

Bayram tədbiri bədii hissə ilə davam edib.

# SƏYAVUŞ HEYDƏROV: "BU GÜN ÖLKƏMİZDƏ MİLLİ VƏ DİNİ HƏMRƏYLİK ƏN YÜKSƏK SƏVİYYƏDƏDİR"




Aprelin 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov "Səs TV"də yayımlanan "Azərbaycan milli-mənəvi dəyərdir – ictimai müzakirələr" layihəsinin qonağı olub.

"Ümummilli Lider Heydər Əliyev çağdaş Azərbaycançılıq ideyasının siyasi banisidir" mövzusuna həsr olunan verilişdə Səyavuş Heydərov Ulu Öndərin yaratdığı milli ideologiya-azərbaycançılıq ideologiyasının mahiyyəti, müstəqil dövlətçilik tariximizdəki yerindən bəhs edib. O bildirib ki, hətta SSRİ dönəmində təbliğinə şərait yaratmaq olduqca çətin olan azərbaycançılıq ideyası Heydər Əliyev üçün prioritet idi. Milli şüurun yaşaması, milli adət-ənənələrimizin əsasını təşkil edən milli bayramlarımızın qeyd edilməsi, milli ruhlu şəxslərimizin təqiblərdən qorunması üçün Ulu Öndər müstəsna xidmətlər göstərib.

Komitə sədrinin müavini qeyd edib ki, müstəqilliyimizin ilk illərinə təsadüf edən xaosun, hakimiyyətsizliyin, hərc-mərcliyin baş alıb getdiyi, erməni təcavüzkarlığının sürətlə genişləndiyi, separatizmin tüğyan etdiyi, həmçinin dini zəmində ayrı-seçkiliyin kök saldığı, qeyri-ənənəvi dini cərəyanların, ideologiyaların yayılmağa başladığı mürəkkəb bir dövrdə birləşdirici və uzaqgörən ideologiyaya ehtiyac var idi. Məhz belə bir vaxtda Ümummilli Liderin azərbaycançılıq ideologiyasını ərsəyə gətirərək onu dövlət ideologiyasına çevirməsi qısa zaman kəsiyində ölkəmizdə sabitliyin bərqərar olmasına səbəb oldu.

Ölkəmizdə milli təhlükəsizlik üçün əsas elementlərdən olan dini və milli həmrəylikdən də bəhs edən S.Heydərov Vətən müharibəsindəki qələbəmizdə Ali Baş Komandanımız Prezident İlham Əliyevin rəhbərliyi, müzəffər Ordumuzun şücaəti ilə yanaşı, bu həmrəyliyin mühüm rol oynamasından danışıb. Vurğulayıb ki, azərbaycançılıq ideologiyasının verdiyi töhfələr əsasında bu gün ölkəmizdə milli və dini həmrəylik ən yüksək səviyyədədir.

Komitə sədrinin müavini S.Heydərov, həmçinin milli olduğu qədər də bəşəri, universal səciyyə daşıyan azərbaycançılıq ideologiyasında tolerantlıq və multikulturalizm amilinə toxunub. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası çərçivəsində formalaşdırdığı siyasət bu gün Azərbaycanı özünəməxsus multikulturalizm, tolerantlıq və dövlət-din münasibətləri nümunəsinin uğurlu modeli kimi dünyada tanıdır.

# DİNİ TƏHSİLİ OLMAYAN ŞƏXS DİN XADİMİ KİMİ FƏALİYYƏT GÖSTƏRƏ BİLMƏZ

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun "Report"a müsahibəsi***



**- Bu günlərdə ölkə Prezidenti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışını etdi. Bu prosesin davamı kimi dini təhsil sahəsində ciddi dəyişikliklər gözlənilirmi?**

- Dini təhsil istər dövlət, istərsə də cəmiyyət üçün vacib sahədir. Çünki dini təhsilin dövlətin və cəmiyyətin dini-ideoloji, ictimai, hətta milli təhlükəsizliyi ilə müəyyən qədər bağlılığı var. Bu mənada 2018-ci ildə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, bu günlərdə isə yeni inzibati binasının açılışı və bütün bunların Prezident İlham Əliyevin təşəbbüsü ilə və şəxsən öz rəhbərliyi altında həyata keçirilməsi təsadüfi sayıla bilməz. Cənab Prezident Azərbaycan İlahiyyat İnstitutunun uğurlu fəaliyyət göstərməsi, ümumiyyətlə, din sahəsində ixtisaslı kadrların hazırlanması üçün nə lazımdırsa, edib və edir. İnstitutun kollektivi isə bu etimadı doğrultmağa çalışır.

O ki qaldı dini təhsil sahəsində başqa dəyişikliklərin olmasına, təbii ki, qarşımızda duran ciddi vəzifələr var. Həmin vəzifələri yerinə yetirmək üçün müəyyən yeniliklərin və dəyişikliklərin olması mümkündür. Məsələn, Azərbaycan İlahiyyat İnstitutuna tələbə qəbulu İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə aparılır. İslamşünasların məscid və ziyarətgahlarda din xadimi, dinşünasların isə elm-təhsil, idarəçilik və digər sahələrdə mütəxəssis kimi çalışması nəzərdə tutulur. Bu ixtisasların hər birinə ildə 36 tələbə qəbul edilir. Amma bugünkü reallıq diqtə edir ki, İslamşünaslıq ixtisasına qəbul planını bir qədər artıraq. Çünki bu ixtisas sahiblərinə daha çox ehtiyacımız var.

Eyni zamanda İnstitutumuzda Gürcüstan, Türkiyə, Qazaxıstandan olan tələbələr təhsil alır. Bu günlərdə isə Özbəkistandan dini təhsil alan tələbələr Azərbaycan İlahiyyat İnstituna qısa müddətlik kursa gəliblər. Deməli, Azərbaycanda dini təhsilə maraq var və bu bizi sevindirir. Həmçinin bu, əsas verir ki, xarici tələbələrə yönəlik strategiyamızı daha da təkmilləşdirək. Məncə, yeni binamızda yaxşı şərait olduğu üçün bu məsələlərlə bağlı daha inamlı və daha böyük addımlar ata biləcəyik.

Təbii ki, bəzi çətinliklərimiz də var. Məsələn, on birinci sinifə qədər dinlə bağlı geniş məlumatı olmayan gənc Azərbaycan İlahiyyat İnstitutuna qəbul olunduqdan sonra onu din xadimi kimi formalaşdırmaq çətindir. Çünki din xadimi olmaq üçün təkcə bilik kifayət deyil, başqa keyfiyyətlərin də olması lazımdır. Təcrübə göstərir ki, gənclər mədrəsə-dini kollec təhsili aldıqdan sonra ali dini təhsil ocağına üz tutduqda onlar din xadimi kimi daha uğurlu fəaliyyət göstərirlər. Başqa sözlə, dini təhsilin mərhələli olması çox önəmlidir.

Digər bir məqam isə qızlarla bağlıdır. Məsələ ondadır ki, İslamşünaslıq ixtisasını seçən abituriyentlərin müəyyən hissəsi qızlardan ibarətdir. Bizə dinimizi yüksək səviyyədə bilən qadın islamşünaslar lazımdır. Amma etiraf edək ki, bu gün məscid və ziyarətgahlarda din xadimi kimi fəaliyyət göstərmək üçün daha çox kişi kadrlara ehtiyac var. Deməli, bütün bu məsələlər hansısa formada tənzimlənməlidir.

Bu il Azərbaycan İlahiyyat İnstitutu ilk məzun buraxılışı olacaq. Bizim onlardan müəyyən gözləntilərimiz var. Təbii ki, məzunların arasından din xadimi kimi təyinat alanlar olacaq.

**- Yeri gəlmişkən, "Dini etiqad azadlığı haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən, müsəlman din xadimlərini Dövlət Komitəsi təyin edəcək. Təyinatın mexanizmi necə olacaq?**

- Hazırda İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin olunması prosedurunu tənzimləyəcək qaydalar üzərində iş gedir. Həmin qaydalarda din xadimi olmaq üçün imtahan verilməsi nəzərdə tutulur. İmtahanın isə müsahibə formasında keçirilməsi planlaşdırılır. Yalnız imtahandan uğurla keçmiş namizədlər din xadimi təyin oluna bilər. Həmçinin nəzədə tutulur ki, sənəd qəbulu elektron qaydada həyata keçirilsin və şəffaflığı təmin etmək üçün imtahanda videoçəkiliş aparılsın. Bir sözlə, bu istiqamətdə normativ-hüquqi sənəd üzərində iş hələ davam edir.

**- Qanunda din xadimlərinin attestasiyası məsələsi də var. Attestasiya necə təşkil olunacaq?**

- Bunun üçün Attestasiya Komissiyasının yaradılması nəzərdə tutulur. Din xadimlərini həmin komissiya attestasiya edəcək. İstər din xadimi olmaq istəyənlərin, istərsə də attestasiyada iştirak edənlərin din, dil, qanunvericilik bilikləri, dünyagörüşləri və peşə bacarıqları yoxlanılacaq. Bunun üçün imtahan-müsahibə və attestasiya proqramları əvvəlcədən hazırlanacaq və rəsmi qaydada təsdiqlənəcək.

**- Attestasiya Komissiyasında kimlər təmsil olunacaq?**

- Qanuna əsasən, attestasiyanı Dövlət Komitəsi keçirir, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri və mütəxəssislər bu prosesdə iştirak edirlər. Əslində, din xadimlərinin attestasiyası yeni məsələ deyil. İndiyədək bu işi Qafqaz Müsəlmanları İdarəsi həyata keçirib və bu sahədə onların təcrübəsi var, biz də bu təcrübədən istifadə edəcəyik.

**- Müsəlman din xadimlərinin təyinatı və attestasiyası ilə bağlı qaydalar hazırlanarkən xarici ölkələrin təcrübəsi də nəzərə alınacaqmı?**

- Əlbəttə. Biz artıq Türkiyə, Özbəkistan, Qazaxıstan və digər ölkələrin təcrübəsinə baxmışıq. Amma təbii ki, hər bir ölkənin öz reallıqları var və bu reallıqlar mütləq nəzərə alınmalıdır.

**- Qısa desək, din xadimi olmaq üçün başlıca meyar nə müəyyən ediləcək?**

- Əslində, bu meyar "Dini etiqad azadlığı haqqında" Qanunda təsbit olunub. Qanuna əsasən, din xadimi olmaq üçün ali və ya orta ixtisas dini təhsili şərtdir. Ali dini məktəb və ya mədrəsə-kollec bitirməmiş bir adamın məscidə din xadimi təyin edilməsi mümkün deyil.

**- Hazırda din xadimlərinin arasında dini təhsili olmayanlar da var. Onların taleyi necə olacaq?**

- Söhbət məscid və ziyarətgahlarda fəaliyyət göstərən din xadimlərindən gedirsə, bəli, onların arasında müəyyən sayda dini təhsili olmayanlar var. Nəzərə almaq lazımdır ki, sovetlər zamanı Azərbaycanda dini təhsil ocağı olmayıb, insanlar dini çox vaxt fərdi qaydada öyrəniblər. Ancaq indi reallıqlar dəyişib. Əgər biz desək ki, təhsilli din xadimlərimizin sayı azdır, bu, doğru olmaz. Hesab edirik ki, qanunun tələbinə uyğun olaraq dini təhsili olmayanlar dini təhsilli şəxslərlə əvəz edilməlidir. Təbii ki, bu bir həftəyə və ya bir aya həll ediləcək məsələ deyil. Amma mümkün olduğu qədər qısa vaxtda bu məsələni həll etməyə çalışacağıq. Prinsip budur ki, təhsili olmayan şəxs müəllim, həkim, mühəndis işləyə bilmədiyi kimi, dini təhsili olmayan şəxs də din xadimi olaraq peşəkar dini fəaliyyətlə məşğul ola bilməz və bu, qanunun tələbidir.

**- Din xadimlərinin maddi təminat məsələlərində hansısa dəyişiklik gözlənilirmi?**

- Cənab Prezidentin təşəbbüsü və Fərmanı ilə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu rəsmi təyinatlı din xadimlərinə aylıq maddi dəstək verir. Hazırda həmin maddi dəstəyin məbləği artırılıb. Fondun Himayəçilər Şurasının qərarı ilə maddi dəstəyin məbləği imam üçün 756, imam müavini üçün 588, mütəvəlli üçün 420 manat müəyyən olunub. Dediyim odur ki, digər sahələrdə çalışan insanların məvacibi, təqaüdü, müavinəti artırıldığı kimi, rəsmi təyinatlı din xadimlərinə göstərilən maddi dəstəyin də məbləği qaldırılıb.

**- Belə başa düşmək olar ki, dini təhsil, imtahandan keçmək və digər şərtlər, eləcə də maddi dəstək almaq rəsmi din xadimlərinə şamil olunacaq. Etiraf edək ki, yas mərasimlərində iştirak edən və ya qəbiristanda fəaliyyət göstərən "din xadimləri"ndən daha çox narazılıq var. Qeyri-rəsmi fəaliyyət göstərən bu şəxslərlə bağlı gələcəyə yönəlik planlarınız olacaqmı?**

- Razıyam, cəmiyyətimizdə narahatlıq və narazılıq doğuran məsələlərdən biri budur. Başa düşürük ki, bu problemi qısa bir müddətdə və bir dəfəlik həll etmək qeyri-mümkündür. Amma mərhələli şəkildə problem həll edilməlidir. Bu istiqamətdə indiyədək müəyyən işlər görülüb, hazırda bəzi təkliflər var.

Qeyd etmək istərdim ki, rəsmi təyinatı olmayan şəxslərin hər hansı formada dini ayınları icra etməsi qanunla qadağandır. Qanunda nəzərdə tutulan bu norma ölkəmizdə mövcud olan bütün konfessiyalara aiddir. Sizin qeyd etdiyiniz "din xadimləri"nin qarşısının alınması istiqamətində işlər görülür.

Onu da əlavə edim edim ki, din xadimlərinin təsnifatında imam, imam müavini, eləcə də dini ayin və mərasimləri icra edəcək "dini ayinlərin icraçısı" vəzifələri nəzərdə tutulur. Habelə "qadın dini ayinlərin icraçısı" vəzifəsi də olacaq. Nəzərdə tutulur ki, qadın dini ayinlərin icraçısı məhz qadınlar üçün dini ayin və mərasimləri icra etsin və onların təyinatı ibadət evlərinə verilsin. Ən əsası, həmin qadınlar da dini təhsilli olsunlar. Tam aydın olsun deyə bir daha vurğulayıram ki, söhbət qadınların imam və ya imam müavini təyin edilməsindən yox, yalnız qadınlardan ibarət dini ayin və mərasimlərin qadın dini ayinlərin icraçısı tərəfindən idarə olunmasından gedir. Əslində, Azərbaycanda bu təcrübə var. Məsələn, bəzi məscidlərdə dini ayinlərin icraçısı-mütəvəlli kimi çalışan qadınlar fəaliyyət göstərir. Bu təcrübəni bir qədər genişləndirmək və təkmilləşdirmək mümkündür.

# AZƏRBAYCANIN VƏ GÜRCÜSTANIN DİNİ QURUMLARI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev bu ölkənin Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze ilə görüşüb.

Səfirlikdən bildirilib ki, görüşdə iki ölkənin dini qurumları arasında münasibətlər müzakirə olunub.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi ilə Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Gürcüstanın Ruhani Akademiyası və Azərbaycanın İlahiyyat İnstitutu arasında əməkdaşlıq haqqında müvafiq sənədlərin imzalanması məsələsi nəzərdən keçirilib.

F.Quliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasındakı dostluq münasibətləri mühüm əhəmiyyət kəsb edir. Bu münasibətlər digər sahələrdə, xüsusən də dövlət qurumları arasında əməkdaşlığın daha da dərinləşməsi üçün möhkəm zəmin yaradır.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşları Anar Rəsulov, Ramel Lətifov və gürcü din xadimləri iştirak ediblər.



# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATINA ÜZV ÖLKƏLƏRİN DİNİ LİDERLƏRİ ŞURASININ İLK TOPLANTISI KEÇİRİLİB

Aprelin 15-də İstanbulda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dini Liderləri Şurasının ilk – təsis toplantısı keçirilib.

Türkiyə Respublikasının Diyanət İşləri Başqanlığının dəvəti, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevin rəhbərliyi ilə baş tutan toplantıda Türk Dövlətləri Təşkilatının təsisinin bu quruma üzv ölkələr, eləcə də türk dünyası üçün əhəmiyyətindən danışılıb. Təşkilat tərəfindən keçirilən tədbirlərin əsas məqsədinin bütün türk dünyasının birliyinə, sülh və əmin-amanlıq içində yaşamasına töhfə vermək olduğu bildirilib. Qeyd edilib ki, hazırda yaşadığımız, xüsusilə islamofobiya, terror kimi hadisələrin daha qabarıq şəkildə meydana çıxdığı bu çətin dövrdə ortaq fikrə ehtiyac var.




Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev qurumun üzv ölkələr arasında hər sahə üzrə sıx əməkdaşlıq etdiyini bildirərək, bu toplantının din sahəsi üzrə də ortaq fikirlərlə seçiləcəyinə əminliyini vurğulayıb.

Tədbirdə ölkəmiz Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Toplantıda Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Qazaxıstan Müsəlmanları İdarəsinin sədri Müfti Naurızbay Taqanulı, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Müfti Nuriddin Xoliknəzərov və Qırğızıstan nümayəndəsi iştirak ediblər.

# "MƏİŞƏT ZORAKILIĞI - ÇIXIŞ YOLU VAR!" ADLI MAARİFLƏNDİRİCİ JURNAL ÇAP OLUNUB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanan "Məişət zorakılığı - çıxış yolu var!" adlı maarifləndirici jurnal çap olunub.

Nəşr Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planının 12.2.3. bəndinə əsasən ərsəyə gətirilib.

Jurnalda erkən nikah problemləri, məişət zəminində baş verən müxtəlif - fiziki, ideoloji, psixi və digər şiddət növləri barədə məlumatlar verilib. Oxucular məişət zorakılığına görə hüquqi məsuliyyət məsələləri, mühafizə orderi, yardım mərkəzləri, eyni zamanda zorakılığa məruz qaldıqda və ya şahid olduqda necə davranmaq, hansı qurumlara müraciət etməklə bağlı suallarına jurnal vasitəsilə cavab tapa bilərlər.

Onu da qeyd edək ki, məişət zorakılığının qarşısının alınmasında əxlaqi-dini dəyərlərin rolunun da geniş şəkildə əks olunduğu nəşrdə şiddətin müxtəlif dinlərə aid müqəddəs kitablarda bəyənilməyən məsələlərdən biri olması xüsusilə vurğulanıb.

# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ: "RAMAZAN AYINDA KEÇİRİLƏN MONİTORİNQLƏRDƏ HƏLƏ Kİ HƏR HANSI CİDDİ QANUN POZUNTUSU AŞKAR OLUNMAYIB"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini duruma nəzarət məqsədilə ölkəmizin şəhər və rayonlarındakı dini məkanlarda, televiziya kanallarında, radiolarda, internet resurslarında davamlı olaraq monitorinqlər həyata keçirilir. Eyni zamanda, bu kimi monitorinqlər Ramazan ayı boyunca da mütəmadi olaraq davam etdirilməkdədir.

Bunu "Trend"ə Dövlət Komitəsinin Təhlil və Proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova deyib.

O bildirib ki, Ramazan ayında aparılan monitorinqlərdə əsas diqqət mərkəzində olan məsələlərdən biri Qafqaz Müsəlmanları İdarəsinin elan etdiyi "Ramazan təqvimi"nə riayət olunmasına nəzarət edilməsidir.



"Bu məqsədlə Dövlət Komitəsi tərəfindən Ramazan ayında fərqli təqvimlərin yayılmasının yolverilməzliyinə, vahid Ramazan təqviminə riayət olunmasının vacibliyinə dair çağırışlar edilib. Ramazan ayında keçirilən monitorinqlərdə hələ ki hər hansı ciddi qanun pozuntusu aşkar olunmayıb", - deyə o bildirib.

# XRİSTİAN DİNİ İCMALARININ ÜZVLƏRİ XOCAVƏNDİN HÜNƏRLİ VƏ TUĞ KƏNDLƏRİNDƏ AYİN İCRA EDİBLƏR

Azərbaycanda fəaliyyət göstərən xristian dini icmaları aprelin 14-də işğaldan azad olunmuş Xocavənd rayonunun Hünərli və Tuğ kəndlərinə səfər ediblər. Səfər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi, "Həyat sözü" xristian dini icmasının təşəbbüsü ilə Pasxa bayramı münasibətilə təşkil olunub.



Xocavəndə "Həyat sözü", "Azərbaycan Bibliya Cəmiyyəti", "Alov", "Vineyard", "Həyatverici lütf", "Şərqdə ulduz", "Yeni həyat", "Alban-udi xristian", "Xilaskar Yevangelik-Lüteranlar", "Yeddinci Günün Adventistləri", "Yevangelist Xristian Baptistlərin kilsəsi", Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmalarının, eyni zamanda, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostal Prefekturası, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumlarının üzvləri, eləcə də bir neçə müsəlman icması səfər edib.

Səfərin məqsədi ölkəmizin mənəvi sərvəti və dəyəri olan dini müxtəliflik, konfessiyalararası qarşılıqlı anlaşma, hörmət və dözümlülük, eləcə də bu amilin Vətən müharibəsində Zəfərin əldə edilməsindəki rolu, Azərbaycanda müxtəlif dinlərə məxsus bayramların maneəsiz qeyd olunması, bununla bağlı ənənələr, o cümlədən fərqli dinlərin nümayəndələrinin bayramlarda birgə iştirakının təbliğ və təşviq edilməsidir.

Səfərdə iştirak edən "Alov" Xristian dini icmasının sədri İdris Məmmədov: "Pasxa bayramı dünya Xristianlığı üçün çox önəmli bayramdır. Bu bayram azadlıq bayramıdır. Bu gün biz işğaldan azad olmuş torpaqlara ibadət etmək üçün gəlmişik. Otuz ildir ki, bu günü gözləyirdik. Biz dua etdik, həsrətlə bu günü gözləyirdik. Otuz ildən sonra Qarabağa qayıtdığımız, kilsədə ibadət etdiyimiz üçün çox şadıq. Burada tək xristian icma nümayəndələri deyil, müsəlman qardaşlarımız da bizim yanımızdadırlar. Bu, xalqımızın birliyini göstərir".

"Vineyard" Xristian dini icmasının nümayəndəsi Emil Pənahov: "Bu bayramı burada qeyd etmək bizim üçün qürurvericidir. Dualarımız eşidildi. İnanırıq ki, gələcəkdə də bayramı burada qeyd edəcəyik".

"Həyat sözü" Xristian dini icmasının baş pastoru Yusif Fərhadov: "Bu bayram günlərində burada olduğumuz üçün tanrıya şükür edirik. Azad olunmuş torpaqlarda dualar oxumaq bizə nəsib oldu. Biz 30 ildən sonra torpaqlarımıza qayıtdıq. Bu torpaqlarda sülh əbədi olsun!"

Roma-Katolik Kilsəsinin Apostol Prefekturasının əməkdaşı Toral Ağayev: "Qarabağ hər bir azərbaycanlı üçün dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq çox əziz və dəyərlidir, bizim tariximizin ayrılmaz hissəsidir, mədəniyyətimizin beşiyidir. Azərbaycanda yaşayan xristianlar üçün Qarabağ xüsusi önəm daşıyır. Çünki bu torpaq Azərbaycanda Xristianlığın tarixi ilə birbaşa bağlıdır. Buradakı qədim kilsələr bütün xristianlar üçün çox önəmlidir. Ümid edirik ki, işğal dövründə törədilən dağıntılar tezliklə aradan qaldırılacaq. Azərbaycan öz torpaqlarına sahib çıxdığı kimi, tarixi və mədəni irsinə də sahib çıxır".

Dini icma üzvləri Hünərli və Tuğ kəndlərində qədim alban kilsələrində olub, dini məbədləri ziyarət ediblər. Şəhidlərin ruhuna dualar oxunub, ayinlər icra olunub.

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİNDƏN

**Möhtərəm cənab Prezident!**

Biz, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Zati-alilərinizi səmimi qəlbdən salamlamaqdan şərəf duyur, səmimi arzularımızı və xeyir-dualarımızı yetirir, Azərbaycan xalqı və dövləti naminə dəyərli fəaliyyətinizə Uca Yaradandan Sizə uğurlar diləyirik.

Möhtərəm cənab Prezident, multikultural Azərbaycan dövlətinin dilindən və dinindən asılı olmayaraq bütün dindarları üçün müqəddəs günlərdə – yəhudilərin Pesax, xristianların Pasxa bayramlarını qeyd etdikləri, müsəlmanların Ramazani-Şərifı yaşadıqları və Eydül-Fitr bayramını qarşılamağa hazırlaşdıqları mübarək günlərdə Zati-alilərinizin bizə özəl diqqət və himayə nümayiş etdirməsini yüksək dəyərləndiririk. Dini icmalarımızın fəaliyyətini dəstəkləmək məramı ilə maliyyə yardımının göstərilməsi barədə Sərəncamınız Cənabınızın müqəddəs bayramlarımıza dəyərli hədiyyəsidir.

Bayramlarımız bizə xoş fürsət verir ki, Sizin Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinizə görə Zati-alilərinizə bütün Azərbaycan dindarlarının dərin təşəkkür və minnətdarlıqlarını bir daha ifadə edək. Xalqımız əziz bayramlarını Vətən müharibəsindəki möhtəşəm Zəfərinin doğurduğu qürur və əzəmət ilə qeyd edir. Tarixi ədalətin bərpası – Azərbaycan torpaqlarının işğaldan azad edilməsi yönündə Ali Baş Komandan olaraq rəhbərlik etdiyiniz qalibiyyətli Vətən müharibəsi haqqın, ədalətin təntənəsi kimi tarixin salnamələrinə həkk oldu. Uca Yaradanın köməyi, dövlət rəhbərimizin qətiyyəti, Azərbaycan Ordusunun gücü, xalqın sarsılmaz həmrəylik və iradəsi, dövlət-xalq, xalq-ordu birliyinə əsaslanan siyasət Azərbaycanın haqq işinin qələbəsini təmin etdi. Dövlət bayrağı azad Qarabağda dalğalandı, məscidlərin minarələrindən Azan səsləri ucaldı, dini məbədlərimiz əsarətdən qurtuldu.

Möhtərəm cənab Prezident, Azərbaycanı qalib ölkə yüksəkliyinə qaldıran Zati- alilərinizin hər bir azərbaycanlının qəlbində özəl yeri vardır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və iqtisadi qüdrətinin artmasında Sizin xidmətləriniz misilsizdir. Milli-mənəvi dəyərlərin, dini və tarixi abidələrin qorunması sahəsində böyük işlər görmüş dövlət başçısı kimi tanınan Zati-aliləriniz azad olunmuş torpaqlarımızda əsarətdən qurtardığınız, vandalizm qurbanı olan dini-mənəvi abidələrimizi - məscidləri, kilsə və sinaqoqları xüsusi məhəbbət və qayğı ilə bərpa və yenidən quran qurucu Prezident kimi Uca Yaradanın nəzərində və xalqın nəzərlərində daha artıq ucalırsınız. Biz tam əminliyi ilə deyə bilərik ki, bu gün Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik, yüksək səviyyəli din-dövlət münasibətləri və etnik-dini tolerantlıq Zati-alilərinizin uğurlu dövlətçilik siyasətinin məntiqi nəticəsi, bəhrəsidir. Zati-alilərinizin silahdaşı, siyasi-ictimai xadim, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, özəlliklə, dini-mədəni irsin qorunması sahəsində dəyərli layihələri xalq tərəfindən yüksək dəyərləndirilir, dindarlarımızın xeyir-duaları ilə qarşılanır. Uca Rəbbimizə xoş gedən bu fəaliyyətlər Azərbaycanın dünyadakı tolerant imicinin, ali mənəvi dəyərlərə sadiqliyinin, mədəniyyətlər, sivilizasiyalar, dinlərarası əməkdaşlıq prosesində örnək rolunun təsdiqidir. Dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dindarları Sizin xalq naminə gördüyünüz işləri yüksək dəyərləndirir, Uca Yaradanının lütfü, dövlət başçımızın rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, Zati-alilərinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xətinizi hər zaman dəstəkləyirlər. Dini konfessiya rəhbərləri olaraq, Sizə ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə görə dərin minnətdarlıqlarımızı bildirir, Uca Yaradandan bütün əməllərinizə xeyir-dualar diləyirik.

Möhtərəm cənab Prezident, bir daha Sizə Azərbaycanın dini icmalarına, multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafına davamlı diqqət və qayğınıza görə dərin təşəkkürlərimizi bildirir, Sizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, şərəfli fəaliyyətinizdə uğurlar diləyirik. Biz əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı və dövlətçiliyi dünya miqyasında daha böyük uğurlara imza atacaqdır. Uca Rəbbimiz Sizi qorusun, hər zaman yardımçınız olsun, Zəfər hər zaman nəsibiniz olsun! Ulu Yaradan öz lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin. Amin!

Dərin hörmət və ehtiramla,

**Şeyxülislam Allahşükür PAŞAZADƏ,**
Qafqaz Müsəlmanları İdarəsinin sədri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurasının sədri.

**Milix YEVDAYEV,**
Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri.

**Vladimir FEKETE,**
Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi.

**Arximandrit ALEKSİY,**
Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi.

**Aleksandr ŞAROVSKİ,**
Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri.

**Robert MOBİLİ,**
Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri.

Azərbaycan Respublikası, Bakı şəhəri.

# YUXARI GÖVHƏR AĞA MƏSCİDİ



Yuxarı Gövhər Ağa məscidi və ya Şuşa Cümə məscidi — Şuşa şəhərinin mərkəzi Meydanında yerləşən və şəhər ərazisində tikilmiş ən qədim məsciddir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır.

"Kitabi-tarixi Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin yazdığına görə, hicri tarixi ilə 1182-ci ildə (miladi ilə 1768-69-cu il) Qarabağ hakimi İbarahimxəlil xan tərəfindən inşa edilən məscid hicri 1281-ci ilində (miladın 1866-1867-ci illərində) mükəmməl şəkildə təmir olunmuşdur. Daxili sahəsi 558 kv. metrdir. Təxminən 30 metr hündürlüyündə qoşa minarəsi var.

Baharlının "Qarabağnamə"sində deyilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan tikilmiş, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır. Məscidin 2 qapısı olduğundan "iki qapılı məscid" kimi də adlandırılmışdır. Təxminən bir əsr sonra elə bu yerdə onun qızı Gövhər Ağanın tapşırığı və vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən daha bir məscid inşa edilmişdir. Buna qədər mövcud olmuş Cümə məscidi binasının görünüşü ilə o zaman Qafqaza səyahət edən rus rəssamı Vasili Vereşaqinin çəkdiyi şəkildən tanış ola bilərik. Rəssamın çəkdiyi şəkildəki məscid binası əzəmətlidir. Onun giriş hissəsi Səfəvi memarlığına xas olaraq həddən artıq böyük baştağdan qurulmuşdur. Baştağın üzərində dam örtüyü Avropa memarlığına məxsus ampir şəklində işlənmişdir. Bu məscid binasının yerində tikilən Yuxarı Gövhər Ağa məscidinin fasadı isə üç eyniölçülü tağla irəli çəkilərək binanın şimal, yəni ön hissəsi boyunca uzanan eyvan şəklində həll olunmuşdur. Yeni binada Qurani-Kərimdən ayələr, məscidin inşa tarixi və Gövhər Ağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələrdəki ornament, eləcə də kitabələr məşhur Azərbaycan şairi və nəqqaşı Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir.

Səxavəti və xeyriyyəçiliyi ilə ad çıxaran xan qızı Gövhər Ağa məscidin bir hücrəsini mədrəsə etmiş, bura ibadətə gələn və ehtiyacı olanlara həftədə bir dəfə yardım, məsciddə Quran oxuyan və azan verən müəzzinlərə məvacib ayırmışdı. Gövhər Ağa vəfat edəndən sonra məscid həyətində dəfn edilmiş, az sonra isə nəşi Məkkəyə aparılaraq orada torpağa tapşırılmışdır.

1992-ci ilin mayında Şuşanın erməni terorçuları tərəfindən işğalı nəticəsində məscid vandalizmə məruz qalmış və qismən dağıdılmış, minarələrinin dekoru zədələnmiş, örtükləri sıradan çıxmışdır. Təmir-bərpa işləri adı altında məscidin daxili interyerində ciddi dəyişikliklər edərək tariximizi saxtalaşdırmağa çalışmışlar.

Şuşa şəhəri 2020-ci il noyabrın 8-də rəşadətli ordumuz tərəfindən azad edildikdən qısa müddət sonra mədəniyyət paytaxtımızda genişmiqyaslı yenidənqurma və abadlıq işlərinə başlanılmışdır.

Hazırda şəhərdə erməni vandalizminə məruz qalmış bir sıra tarixi-mədəni abidələrdə, o cümlədən Yuxarı Gövhər Ağa məscidində bərpa işləri aparılır. Heydər Əliyev Fondu tərəfindən tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işlərinə start verilmiş və davam etməkdədir. Hazırda məsciddə ikinci mərhələ üzrə bərpa işləri aparılır. Bu mərhələdə məsciddə ilkin layihə qorunmaqla möhkəmləndirmə işləri həyata keçirilir, məscidin ərazisində olan və ermənilər tərəfindən dağıdılmış mədrəsə də bərpa edililir. Ən geniş bərpa işləri dağıntıların miqyasına uyğun olaraq, Aşağı Gövhər Ağa məscidində aparılır. Məscidlərin minarələri bərpa olunur, eləcə də dam və döşəmə örtükləri dəyişdirilir.

Hazırladı: **Orxan MAŞAYEV**



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## *Abdullayev Rasim Yaqub oğlu*



4 günlük II Qarabağ müharibəsində üç minə yaxın şəhid Vətən övladının sırasında 10 hərbi həkimimiz də var. Onların arasında ən yüksək rütbəlisi tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevdir.

Rasim Yaqub oğlu Abdullayev 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Milli kəndində anadan olub. Onun babaları 1918-ci ildə erməni zülmü üzündən Azərbaycanın qədim Dərələyəz mahalından qaçqın düşərək Kəlbəcərin Milli kəndində pənah gətiriblər. Rasim 1982-1990-cı illərdə Milli kəndə orta məktəbində təhsil alıb. Orta məktəbin son siniflərini isə Kəlbəcər şəhər 1 saylı orta məktəbdə oxuyub. O məktəbi bitirəndə Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsinin ən qızğın vaxtları idi. Həmin mürəkkəb zamanda, 1992-ci ildə Rasim Azərbaycan Tibb Universitetinə qəbul olunur. Onun ailəsinin qismətinə daha bir didərginlik vardı. Ermənistan silahlı birləşmələri 1993-cü ilin 2 aprelində Kəlbəcəri işğal edəndə Rasimin ailəsi də isti ocağından qaçmalı olur.

Rasim 1998-ci ildə təhsilini başa vurur və 2000-ci ilə qədər Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında internatura (tibbi təcrübə) keçir. Həmin il könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu kimi xidmətə başlayır. 2005–2015-ci illərdə Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının Terapiya şöbəsində çalışır, bir müddət sonra şöbənin rəisi olur. Xidmətinin 10 və 15 illiklərində uğurlu fəaliyyəti qiymətləndirilir, "Qüsursuz xidmətə görə" medalının 3-cü və 2-ci dərəcələri ilə təltif edilir. 2015-ci ildən 2016-cı ilin sonunadək Gəncədə yerləşən hərbi poliklinikada rəis vəzifəsində çalışan Rasim Abdullayev dördgünlük Aprel döyüşlərində müharibənin qaynar nöqtələrində olur, yaralı hərbçilərə yerindəcə tibbi yardım göstərir.

2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidmətinin rəisi vəzifəsinə təyin olunan Rasim Abdullayev 2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirir. O daha sonra N saylı hərbi hissədə tibb bölüyünün komandiri vəzifəsinə təyin edilir və Vətən müharibəsi başlayana qədər burada fəaliyyət göstərir.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayev də qızğın döyüşlərin getdiyi Hadrut qəsəbəsi istiqamətində yaralı hərbçilərə yardım göstərir. O, ailəsi ilə sonuncu dəfə noyabrın 9-da işğaldan yeni azad olunmuş Şuşadan telefonla əlaqə saxlayır.

Müharibənin son saatlarında Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı komandanlıq tərəfindən tapşırıq gəlir. Rasim Abdullayev hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxır. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində düşmənin pusqusuna düşürlər və ağır yaralanan Rasim Abdullayev şəhid olur. Fədakar həkim Bakıda II Şəhidlər xiyabanında torpağa tapşırılıb. Qəhrəman şəhidin Miryaqub və İslam adlı oğulları yadigar qalıb.

Cəsarəti və şücaəti ilə adını vətən tariximizin şanlı səhifəsinə əbədi yazan tibb xidməti polkovnik-leytenantı Abdullayev Rasim Yaqub oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

## *Abdullayev Rəşad Arif oğlu*



Şəhid kapitan Abdullayev Rəşad Arif oğlu 1988-ci il sentyabrın 14-də Cəlilabad rayonunun Göytəpə qəsəbəsində doğulub. O, 1995-ci ildə Vüqar Mürsəlov adına Göytəpə şəhər 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Uşaqlıqdan hərbçi olmaq istəyən qəhrəmanımız orta məktəbin 8-ci sinfini bitirdikdən sonra 2003-cü ildə təhsilini Cəmşid Naxçıvanski adına hərbi liseydə davam etdirib. Hərbi liseyi uğurla başa vuran Rəşad Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) qəbul olub. 2010-cu ildə AAHM-i "motoatıcı" ixtisası üzrə bitirərək leytenant rütbəsi alıb. Daha sonra Təlim Tədris Mərkəzinin zabit ixtisası kursuna dinləyici olaraq göndərilib, kursu başa vurub Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. 2011-ci ilin dekabrında Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) kursunu keçmək üçün "N" saylı hərbi hissəyə ezam olunan Rəşad yüksək bacarıq və xüsusi hərbi keyfiyyətlərinə görə 2012-ci ildə kursu uğurla başa vurub. 2012-ci il iyulun 8-dən xidmətinə XTQ-də davam edib.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdır. Tarixə Aprel döyüşləri olaraq yazılan döyüşlər zamanı Rəşad Abdullayev XTQ-nin qrup komandirinin müavini kimi döyüşlərə qoşul. Müharibənin ilk günündən öz qrupu ilə düşmənin nəzarətində olan ərazilərin dərinliklərinə doğru irəliləyən qəhrəmanımız mühasirəyə düşsə də, xeyli sayda düşmən zabit-əsgər heyətini məhv edərək mühasirədən çıxmağı bacarıb.

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə baş leytenant Rəşad Abdullayev Azərbaycan Prezidenti cənab İlham Əliyevin 24 iyun 2016-cı il tarixli 2176 nömrəli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Qəhrəman hərbçimiz xidməti ərzində bir sıra xarici ölkələrdə keçirilən XTQ kurslarının, o cümlədən Türkiyədə keçirilən "TurAZ Qartalı" paraşut təlimlərinin iştirakçısı olub. O, bu kursların hər birində fərqlənməyi bacararaq, müxtəlif diplomlara layiq görülüb.

Xüsusi döyüş istedadına malik Rəşad müxtəlif vaxtlarda lokal toqquşmalarda iştirak etmiş, onlarla düşmən diversantının məhv edilməsinə birbaşa töhfə verib. Cəbhənin ən kritik nöqtələrində, onlarla uğurlu əməliyyatların iştirakçısı və təşkilatçısı olan peşəkar döyüşçümüz Tovuz döyüşlərinin də aktiv iştirakçısı idi. Xidmət ərzində dəfələrlə şücaətinə görə, komandanlıq tərəfindən fəxri fərman və təşəkkürnamələr alıb.

Öz döyüş qabiliyyəti, igidliyi ilə seçilən qəhrəmanımız sentyabrın 27-dən İkinci Qarabağ müharibəsində döyüşlərə qoşulub. Kapitan Rəşad Abdullayev Murov dağ silsiləsində gedən döyüşlərdə xüsusi qəhrəmanlığı ilə seçilib. Rəşadın rəhbərlik etdiyi qrup Murov yüksəkliyini düşmənin işğalından azad edib. Sentyabrın 28-də ağır yaralanan Rəşad Abdullayev həmin ayın 3-da şəhid olub. O, anadan olduğu Göytəpə şəhərində torpağa tapşırılıb.

Şəhidimiz ailəli idi, onun bir qız, bir oğlu Vətənə yadigar qalıb.

Xidməti ərzində "Qüsursuz xidmətə görə","Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medallarına layiq görülən kapitan Abdullayev Rəşad Arif oğlu ölümündən sonra ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı","Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının adlarının əbədiləşdirilməsi barədə müvafiq qərarına əsasən Cəlilabad şəhəri 2 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Rəşad Arif oğlu Abdullayevin adı verilib.

Hazırladı: **Ramil HİKMƏT**

# Kim üzr istəməlidir?

### *(III hissə)*

*Uzun müddətdir, belə bir sərlövhəli yazı yazmaq və ona konkret faktlarla cavab vermək istəyirdim. Belə ki, Azərbaycan və Türkiyə dövlətlərinə, eləcə də xalqımıza patoloji nifrət bəsləyən cəllad xislətli və qatı millətçi Zori Balayan Ermənistanın Azərbaycan Respublikasına qarşı növbəti əsassız torpaq iddiaları ilə bağlı çıxışlarının birində uydurma erməni qırğınlarından bəhs etmişdi. O, buna görə azərbaycanlıların ermənilərdən üzr istəmələrini təklif və hətta tələb etmişdi. Lakin obyektiv araşdırmalar aparan tarixçi alimlərin əsərlərini oxuduqca məlum olur ki, keçən əsrin əvvəllərindən əzəli Azərbaycan torpaqlarında dövlət yaratmaq istəyən ermənilər azərbaycanlılara qarşı əsl soyqırımı törədiblər. Qadınlar, uşaqlar, yaşlılar da daxil olmaqla minlərlə günahsız insan azərbaycanlı olduğu üçün erməni faşistləri tərəfindən xüsusi amansızlıqla, qəddarcasına, işgəncələr verilərək qətlə yetirilmişdi. Bu oxuduqlarımdan əlavə, yaşlı nəslin nümayəndəsi, 1988-ci ildən ermənilərin Azərbaycana qarşı yeni torpaq iddiaları zəminində azərbaycanlıları öz ata-baba torpaqlarından silah gücünə çıxararkən törətdikləri vəhşiliklərin bilavasitə şahidi kimi həmişə fikirləşmişəm ki, bu haqsızlıqlar haqqında eşidən, bilən və görən normal düşüncəli ermənilər gec-tez azərbaycanlılardan üzr istəyəcəklər. Beləliklə, erməni şovinistlərinin törətdikləri vəhşiliklərlə bağlı məqalənin davamını oxucuların diqqətinə təqdim edirəm.*

**Ermənilərin Tərtər vəhşilikləri.** İkinci Qarabağ müharibəsi ərzində ermənilər tərəfindən Tərtər rayonu artilleriya, raket və kasset bombaları ilə bombardman edildi. Erməni silahlı qüvvələri 29 oktyabr tarixinə qədər rayon ərazisinə 15.500 mərmi, bəzi günlərdə isə 2000-dən çox mərmi atıblar. Məlumatlara görə, erməni faşistlərinin bir gündə Tərtərə atdıqları bombaların sayı alman faşistlərinin Stalinqrada bir gündə atdıqları bombaların sayından çoxdur. Nəticədə **Tərtər rayonunda bombardman nəticəsində 17 mülki şəxs ölüb və 61 nəfər yaralanıb. Ümumilikdə, təxminən 1200 nəfər bombardmandan əziyyət çəkib, 4 minə yaxın mülki obyekt zərər görüb.** 29 oktyabr tarixinə qədər 133 ev tamamilə dağıdılıb, 873 ev, həmçinin 14 məktəb, 3 xəstəxana və 18 dövlət binası qismən ziyan görüb. Hətta allahsız ermənilər dəfn mərasimi zamanı da Tərtərdə bir qəbiristanı atəşə tutublar. **Yenə sual olunur: Tərtər vəhşiliklərinə görə kim üzr istəməlidir?**

**Ermənilərin Naftalan terroru.** 27 sentyabr 2020-ci ildə Ermənistan Silahlı Qüvvələri Goranboy rayonunun Naftalan şəhəri yaxınlıqlarında yerləşən Qaşaltı Qaraqoyunlu kəndinə artilleriya hücumu etmiş, hadisə nəticəsində **bir ailənin 5 üzvü** (1951-ci il təvəllüdlü Elbrus Qurbanov, 1956-cı il təvəllüdlü Şəfayət Qurbanova, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 1981-ci il təvəllüdlü Afaq Əmirova) **həlak olmuşdu.** Hücum nəticəsində fərdi yaşayış evinə və evin həyətində olan yardımçı tikililərə 100 min manat məbləğində ziyan dəymişdi. Bir ailədən 5 mülki şəxsin həlak olması böyük faciədir. **Bu faciəyə görə kim üzr istəməlidir?**

Ermənilərin Goranboy terroru. İkinci Qarabağ müharibəsində Ermənilərin Goranboy rayonu ərazisini ağır artilleriya qurğularından atəşə tutaraq ekoloji terror törətməsi nəticəsində meşəlik zonada yanğın baş vermiş, lakin yanğın söndürülmüş və sıx meşəlik əraziyə keçməsinin qarşısı alınmışdı. Oktyabrın 28-də təxminən axşam saat 05.00-da ermənilərin açdığı atəş Tapqaraqoyunlu kənd sakini **63 yaşlı Flora Zahidovanın ölümünə səbəb olmuşdu.** 650 ailənin yaşadığı kəndin 170-nə hücumlar nəticəsində müxtəlif dərəcədə ziyan dəyib. **Bu ekoloji terrora və günahsız insan ölümünə görə kim üzr istəməlidir?**

**Ermənilərin Mingəçeviri bombalaması.** Vəhşiləşmiş erməni silahlıları Azərbaycanın önəmli və çox strateji yaşayış məntəqələrindən olan Mingəçevirə də raket zərbəsi endirərək mülki əhalini və mühüm obyektləri hədəf almışdılar. Allahsız ermənilərin əsas hədəfi isə çox böyük dağıntılara səbəb ola biləcək Mingəçevir dəryaçası bəndlərinin dağıdılması idi. Lakin vəhşiləşmiş ermənilərin bu planı Allahın köməyi ilə baş tutmadı. Mingəçevirin bombalanması nəticəsində **5 nəfər yaralandı. Kim üzr istəməlidir?**

**Ermənilərin Xızı və Abşeronu bombalaması.** Xızı və Abşeronun mülki obyektlərinin bombalanması, həm mülki əhalini, həm də ordunu demoralizə etməyə hesablanmışdı. Lakin bu əks effekt verdi. Belə ki, Azərbaycan vətəndaşları və ordusunun erməni vəhşilərinə qarşı nifrətləri daha çox artdı və 44 günlük müqəddəs Vətən müharibəsi qələbəmizlə nəticələndi. **Beləliklə, bu kimi erməni vandallığına görə kim üzr istəməlidir?**

**Ermənilərin Ağdam və Füzulini bombalaması.** Ermənilər İkinci Qarabağ müharibəsi dövründə Ağdam və Füzulinin ötən əsrin 90-cı illərində işğal edə bilmədikləri kəndlərini də bombalamaqla ciddi dağıntılara və mülki insanların zərər çəkməsinə səbəb oldular. **Sual olunur: kim üzr istəməlidir?**



**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV: BİZ MÜHARİBƏNİ LƏYAQƏTLƏ APARMIŞIQ VƏ DÜŞMƏNƏ CAVABI DÖYÜŞ MEYDANINDA VERMİŞİK.**

17 mart 2022-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən müzəffər Azərbaycan Ordusunun terrorçu erməni ordusundan fərqli qaydada apardığı döyüşlər haqqında demişdi: **"Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq. Halbuki xalqımızın ürəyində qisas hissi həmişə var idi. Çünki ermənilər tərəfindən bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və qisas hissi mütləq olmalı idi. Ancaq mən demişdim ki, düşməndən intiqamı döyüş meydanında alacağıq. Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. "Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər.**

**Mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki indi dünyada bir çox yerlərdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür".**

44 günlük İkinci Qarabağ müharibəsi zamanı KİV-də ermənilər tərəfindən çəkilmiş bir fotoşəkil yayılmışdı: erməni topçu mülki formada olan orta yaşlı biri, ona kömək edən isə uşaq idi. Digər fotoşəkildə on mindən artıq fərari erməni hərbçisinin guya yerini doldurmağa hazırlaşan və bu məqsədlə hərbi hazırlıqlar keçən erməni qadınlar əks olunmuşdu. Təbii ki, bu mülki şəxslər döyüşdə iştirak edərkən yaralana və ölə bilərdilər. Buna görə isə günahkar allahsız ermənilərdir. **Belə olan halda sual olunur: kim üzr istəməlidir?**

Məncə, bu faktı da mütləq qeyd etmək lazımdır ki, Birinci Qarabağ müharibəsi ərəfəsində və sonralar günahsız azərbaycanlı mülki əhalini Xocalı, Ağdaban və s. yaşayış məskənlərində vəhşicəsinə qətlə yetirən erməni cəlladları özlərini qəhrəman hesab edirdilər. Lakin həmin "qəhrəmanlar" - uşaq qatilləri S.Sarkisyan və R.Köçəryan Azərbaycan Respublikası Prezidenti, Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük İkinci Qarabağ müharibəsində işğal altında olan torpaqlarımız azad edilərkən fərari kimi qaçdılar. Prezident İlham Əliyev 2022-ci il yanvarın 30-da Gəncə şəhərində səfərdə olan zaman AZƏRTAC-a müsahibəsində demişdi: **"Erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndidən qorxaqcasına, dovşan kimi qaçmışdılar".** Bu "dovşanlar" törətdikləri vəhşiliklərə və nəticə etibarı ilə allahsızlıqlara görə mütləq Azərbaycan xalqından üzr istəməli, Allah qəbul edərsə, tövbə etməli və yenə də üzr istəməlidirlər. Lakin mən həyat təcrübəmə əsasən deyirəm ki, S.Sarkisyan və R.Köçəryan kimi vəhşilərin tövbələrini Allah da qəbul etməyəcək, onları mütləq cəzalandıracaq. Onlar Cəhənnəmdə alacaqları cəzalardan öncə törətdikləri vəhşiliklərə görə obyektiv, tərəfsiz beynəlxalq hüquq qaydaları əsasında da cəzalandırılmalıdırlar. Cəzalarının nisbətən yüngül olmasını istəyirlərsə, **azərbaycanlılardan dönə-dönə üzr istəməlidirlər.**

Bu yazılanlardan sonra belə bir təbii sual meydana çıxır: bəs nə üçün S.Sarkisyan və R.Köçəryan kimilər insanlıq əleyhinə cinayət, soyqırımı törətsələr də, beynəlxalq məhkəməyə cəlb olunmurlar? Məncə, bu sualın bir cavabı var: ermənipərəst dövlətlərin yenə də ikili standartları! Nə vaxta qədər? Yəqin ki, haqsız bəndələrinin bu səhvlərini Allah düzəldəcək. Mütləq. 44 günlük Vətən müharibəsinin nəticələri bunun əyani sübutudur.

Erməni vəhşiliyi haqqında Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili də (Ombudsman) beynəlxalq ictimaiyyətə çağırış etdi. Belə ki, Ombudsmanın Ermənistanın müharibə zamanı istifadə etdiyi kasetli bombaların partlaması nəticəsində mülki şəxsin həlak olması ilə bağlı beynəlxalq ictimaiyyətə çağırışında deyilirdi: "Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il 27 sentyabr tarixindən başlayaraq Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı yaşayış məntəqələrinin, sosial, tarixi və mədəni, strateji əhəmiyyətli obyektlərin ağır artilleriya qurğularından və qadağan olunmuş silahlardan atəşə tutulması nəticəsində həmin yerlərə ciddi ziyan dəymiş, çoxsaylı insan tələfatı və yaralanma halları baş vermişdir. Məlumdur ki, 2020-ci il 6 oktyabr tarixində gecə saatlarında münaqişə zonasından uzaqda yerləşən, mülki əhalinin sıx yaşadığı Yevlax rayonu ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri də kaset tipli raket zərbələrinə məruz qalıb. Təəssüflə bildiririk ki, **2022-ci il 1 fevral tarixində gecə saatlarında Yevlax rayonu ərazisində kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan 1996-cı təvəllüdlü İsmayıl Mikayılov məhz kasetli bombanın partlaması və çoxsaylı qəlpə yarası alması nəticəsində həyatını itirib. Hərbi əməliyyatlar zamanı Ermənistan tərəfindən törədilmiş çoxsaylı müharibə cinayətlərinin acı nəticələrini mülki əhali hələ də yaşamaqdadır.** Ermənistanın partlamamış silahlarla, mina və müharibənin partlayıcı qalıqları ilə çirklənmiş ərazilərin tam və dəqiq xəritələrini verməkdən imtina etməsi isə daha çox tələfata səbəb olmaqla, insan hüquqlarına ciddi təhdid olaraq qalır. Bu baxımdan beynəlxalq təşkilatları, xarici ölkələrin Ombudsman və milli insan hüquqları təsisatlarını regionda sülhə manea yaradan Ermənistanın törətdiyi insan hüquqları pozuntularına münasibət bildirməyə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun qəti tədbirlər görməyə çağırıram".

davamı səh. 11

# Kim üzr istəməlidir?

### (III hissə)

əvvəli səh. 10

**44 günlük Vətən müharibəsindən sonrakı erməni vəhşilikləri**

Təəssüf ki, bu dövrdə də mülki azərbaycanlılara qarşı erməni vəhşiliyi davam edib və edir. Bu barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə də deyib. Prezident İlham Əliyev qeyd edib ki, **Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıb. Odur ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılmasının vacibliyini də deyib.** Yenə də təəssüf ki, hələ tapılmayan minaların partlaması nəticəsində Azərbaycan vətəndaşları yaralana və ya həlak ola bilər. Çünki ermənilərin Azərbaycan dövlətinə verdikləri mina xəritələri dəqiq deyil. Araşdırmalara görə, bu xəritələrin dəqiqliyi təxminən 25%-dir. Dediklərimizi təsdiq edən çoxsaylı hadisələrdən bir neçəsini təqdim edirəm. Belə ki, bu ilin yanvar ayında Goranboy rayon Tapqaraqoyunlu kəndinin 26 yaşlı sakini Məmmədov Vüqar Maqsud oğlu qoyun otaran zaman minaya düşüb. Onun sol ayağı amputasiya olunub. Və ya Füzuli rayonun işğaldan azad olunmuş Seyid Əhmədli kəndində 23 mart 2020-ci il tarixdə 1996-cı il təvəllüdlü Vüqar Zülfüqarlı minaya düşüb. Hadisə nəticəsində o, sol pəncəsindən qəlpə yarası alıb və fəqərəsi sınıb. **Bu gənclərin günahı nə idi, ey erməni vəhşiləri? Kim üzr istəməlidir?**

**Bu millət düzəlmir ki, düzəlmir. Və bu gedişlədə düzələn deyil.**

Özlərini "mədəni xalq" adlandıran ermənilərin son vaxtlar etdikləri hərəkətləri də vəhşilik kimi qiymətləndirmək olar. Ermənilər Avronest Parlament Assambleyasının bu yaxınlarda İrəvanda keçirilən iclasında iştirak edən Milli Məclisin deputatları Tahir Mirkişili və Soltan Məmmədovu ölümlə hədələdilər. Bu haqda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili İrəvan səfərilə bağlı keçirdiyi mətbuat konfransında danışmışdı: **"İclas başlayanda ilk rastlaşdığımız Ermənistanın müxalifət partiyalarının üzərimizə hücumu oldu. Onlar həqiqətə uyğun olmayan fikirlər, çıxışlarla bizə qarşı addım atdılar. Həmkarım Soltan Məmmədovla birlikdə onlara lazımi cavab verdik. Biz Azərbaycanın mövqeyini bildirdik ki, müharibə bitib. Sülh və əməkdaşlıq istədiyimizi qeyd etdik. Bizim planımız sadəcə sağlam qüvvələrlə qonşuluq münasibətlərini bərpa etməkdir. Mənə hədələr gəlirdi, bir erməni hətta mənə yazdı ki, sizin başınızı kəsib valideynlərinizə göndərəcəyik". Budur erməni "qonaqpərvərliyi"! Ey allahsız Z.Balayan, kim üzr istəməlidir ?**

**Bəli, belə davam etsə, bu millətin düzəlməyinə ümid azdır.** Azərbaycanın sülhsevər qonşuluq siyasətinə baxmayaraq, faşist xislətli ermənilər yenə də müharibə istəyirlər. Terrorçu "Daşnaksütyun" partiyasının 05.02.2022 tarixdə İrəvanda keçirilmiş illik toplantısında Ermənistanın və Qarabağdakı separatçı rejimin terrorçu eks-prezidentləri R.Köçəryan, S.Sarkisyan, B.Saakyan və A.Qukasyan, müxalifət partiyalarının liderləri, habelə bütün ermənilərin katolikosu II Qaregin Azərbaycan və Türkiyəyə qarşı kəskin çağırışlar səsləndirmiş, Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesini dayandırmağı təklif etmişdilər. Diaspordan, Ermənistandan və Qarabağdan olan ermənilərin yeni müharibəyə, günahsız insanların qanının tökülməsi prosesinə qoşulmalarını istəmişdilər. Özləri isə yenə də aktiv müharibə gedən ərazilərdən dovşan kimi qaçacaqlar.

**Bu faşistlər elə bilirdilər ki, tökdükləri qanlara görə cavab verməyəcəklər. Lakin zaman dəyişdi.** 30 il Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistan və onun faşist rəhbərlərinin haqqında "məğlubedilməz" obrazı yaratdıqları orduları da, əzəli Azərbaycan torpaqlarında qurduqları marionet dövlətləri də 44 günün içində çökdü. Başqa cür ola da bilməzdi!

**Son söz əvəzi**

**Ötən illər ərzində beynəlxalq səviyyədə hərbi əməliyyatların aparılmasını nizamlayan hüquqi baxımdan məcburi normaların möhkəm təməli işlənib hazırlanıb. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev təşkilatın mənzil-qərargahında BMT Təhlükəsizlik Şurasının "Şəhərlərdə hərbi əməliyyatlar: şəhər şəraitində mülki şəxslərin müdafiəsi" mövzusuna həsr edilən iclasında deyib ki, "İnkişaf etməkdə olan beynəlxalq məhkəmə praktikası beynəlxalq hüququ möhkəmlətməyə kömək edib, ən ciddi cinayətlərə görə təqsirkarların cəzalandırılmasına, belə cinayətlərin təkrarlanmasının qarşısının alınmasına, hüququn aliliyinin təmin edilməsinə, sülhün bərpasına və dünyanın inkişafına şərait yaradıb".** Ola bilsin ki, allahsız ermənilər öz əməllərinə haqq qazandırsınlar, hansısa ermənipərəst dövlətin və ya şəxslərin maraqlarına görə bu gün məsuliyyətdən qaça bilsinlər, amma sonda hər şey öz yerini tutacaq. İnanıram ki, həm vəhşiləşmiş ermənilər, həm də onların allahsız havadarları Allahın ədalətindən qaça bilməyəcəklər və törətdikləri vəhşiliklərin cavabını verəcəklər, cəzalanacaqlar. Cəzanın nisbətən yüngül olması üçün isə onlar mütləq Azərbaycan dövlətindən və onun bütün vətəndaşlarından dəfələrlə üzr istəməlidirlər. Necə ki, günahsız mülki Srebrenitsa müsəlmanlarının serblər tərəfindən vəhşicəsinə öldürülməsinə görə **25 aprel 2013-cü ildə Serbiyanın ovaxtkı Prezidenti Tomislav Nikolits üzr istəmişdi: "Mən diz çökür və Serbiyanın Srebrenitsada baş verən qırğın üçün bağışlanmasını xahiş edirəm. Mən bəzi şəxslər tərəfindən bizim dövlətimiz və xalqımızın adından edilən bu cinayətlər üçün üzr istəyirəm".**

**Elçin Bilaloğlu,**
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Milli Onkologiya Mərkəzinin həkimi

## 2030-CU İLDƏ RAMAZAN AYI İKİ DƏFƏ QEYD EDİLƏCƏK



Səudiyyəli astronom Xalid əl-Zaqaqın sözlərinə görə, müsəlmanlar 2030-cu ildə iki dəfə müqəddəs Ramazan ayının gəlişini qeyd edəcəklər. Bunun səbəbi hicri təqviminin ay dövrlərinə, miladi təqvimin isə Yerin Günəş ətrafında dövr etməsi siklinə əsaslanmasıdır.

Astronom tviter hesabında yerləşdirdiyi videoda bunu belə izah edib: iki təqvim arasındakı fərq milad təqvimində Ramazan ayının hər 30 ildə bir dəfə təkrar olunacağını göstərir. Bu, sonuncu dəfə 1997-ci ildə, ondan əvvəl isə 1965-ci ildə baş verib. Beləliklə, Hicri 1451-ci ildə Ramazan ayı miladi təqvimlə 2030-cu il yanvarın 5-də başlayacaq, həmin il dekabrın 26-da müsəlmanlar yenidən müqəddəs ayın gəlişini qeyd edəcəklər. Bu, müsəlmanların 2030-cu ildə təxminən 36 gün - hicri 1451-ci il üçün 30 gündən ibarət tam və 1452-ci il üçün təxminən altı gün oruc tutması ilə nəticələnəcək.

Astronom bildirib ki, hicri-qəməri ili 354 və ya 355 gün davam edir, yeni 365 gün olan miladi təqvimlə uyğun gəlmir. Bu həm də o deməkdir ki, Ramazan hər il müxtəlif fəsillərə düşür və təqribən 32 illik dövrələrlə davam edir.

## MÜSƏLMAN DÜNYASI LİQASI İSVEÇDƏ "QURANİ-KƏRİM"İN YANDIRILMASINI PİSLƏYİB

Müsəlman Dünyası Liqası (MDL) İsveçdə ekstremistlər tərəfindən müqəddəs "Qurani-Kərim"in yandırılması və müsəlmanların təhqir edilməsi ilə bağlı bəyanat yayıb.

MDL-in Baş katibi Şeyx Məhəmməd Əbdülkərim əl-İssanın adından yayılan bəyanatda insidentin dinlərarası dialoqa zidd olduğu, bu cür əməllərin cəmiyyətdə kin və nifrət ab-havası yaratdığı qeyd edilib. Vurğulanıb ki, bu hərəkətlər ümumbəşəri dəyərlərə hörmətlə yanaşan İsveç xalqının mövqeyini əks etdirmir və bu ölkədə yaşayan müsəlmanlar hadisəyə təmkinlə yanaşmalı, qardaşlıq və hörmət prinsipini rəhbər tutmalıdırlar.

Əl-İssa bildirib ki, ekstremistlərin bu barbar hərəkətləri müsəlmanların inancını daha da gücləndirir. İslam aləmi bütün dünyada sevgi, sülh və ahəng şəraitində birgə yaşamağın tərəfdarıdır.

İsveçdə baş vermiş insidentlə bağlı Səudiyyə Ərəbistanı, İordaniya, Oman, Birləşmiş Ərəb Əmirlikləri və Yaxın Şərqin digər ölkələrinin da yaydığı bəyanatlarda "Qurani-Kərim"ə qarşı hörmətsizlik qətiyyətlə pislənilib.

## SƏUDİYYƏ ƏRƏBİSTANI BU İL HƏCC ZİYARƏTİNƏ 1 MİLYON ZƏVVAR QƏBUL EDƏCƏK

Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi bu il Həcc ziyarətinə 1 milyon zəvvarın qəbul ediləcəyini bildirib.

"SPA" agentliyinin xəbərinə əsasən, COVID-19 pandemiyası səbəbindən son iki ildə Həcc ziyarətini məhdud sayda yerli zəvvarın iştirakı ilə keçirən Səudiyyə Ərəbistanı bu il kvotanı artırıb.

Nazirliyin açıqladığı yeni şərtlərə görə, 65 yaşa qədər və yeni növ koronavirus əleyhinə vaksin sertifikatı olan şəxslər Həcc ziyarətində iştirak edə biləcəklər. Bundan başqa, zəvvarlar gəldikləri ölkədən 72 saat müddəti olan PCR testinin neqativ nəticəsini təqdim edəcəklər. Ayrı-ayrı ölkələrə kvotaların ayrılması zamanı həmin dövlətlərdə pandemiyanın vəziyyəti də nəzərə alınacaq.

Qeyd edək ki, pandemiyaya qədər Həcc ziyarətində 2 milyona yaxın zəvvar iştirak etmişdi. Ötən il isə onların sayı cəmi 58 min 745 nəfər olmuşdu.



# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini aprel ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən:**

**1 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliklərinin



birgə təşkilatçılığı ilə Ramazan ayının başlanması münasibətilə; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, İmişli rayon Gənclər və İdman İdarəsi (Gİİ), Gənclər və İnkişaf Karyera Mərkəzinin rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Aprel döyüşləri: böyük Zəfərin müqəddiməsi" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon Ə.Şüküroğlu adına Varxan kənd tam orta məktəbində "Gənclər arasında erkən nikah və narkomaniyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Biləsuvar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Ramazan ayının başlanması və qarşıda duran məsələlər" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Qarabörk kənd tam orta məktəbində "Narkomaniya və narkotiklərin ziyanı" mövzusunda;

**5 aprel** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Aprel döyüşlərinin altıncı ildönümü münasibətilə; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və QMİ-nin birgə təşkilatçılığı ilə Ramazan ayının başlaması münasibətilə; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Quba şəhər "Cümə" məscidində "Dinlər və məzhəblərarası münasibətlər: tolerantlıq, dostluq və əməkdaşlıq" mövzusunda;

**6 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ramazan ayı ilə əlaqədar; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Aprel döyüşlərinin altıncı ildönümü münasibətilə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Aprel döyüşlərinin altıncı ildönümü münasibətilə; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə Tibb Kollecində "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı çərçivəsində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad rayonu Alar kəndi Heydər Əliyev adına 1 saylı tam orta məktəbində "Zərərli vərdişlərə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Laçın rayonunun Taxtakörpü qəsəbəsində "Gənclik narkomaniyaya yox deyir!" mövzusunda;

**7 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə Dövlət Universitetində "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda;

**8 aprel** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Masallı şəhəri Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərli adına 3 saylı tam orta məktəbində "Narkomaniya əsrin bəlasıdır" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab şəhəri 3 saylı tam orta məktəbində "Birlikdə düşünək, narkomaniyaya yox deyək" mövzusunda;

**12 aprel** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən Gənclər Evi sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə rayonun Mahamalar kənd tam orta məktəbində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH, rayon Polis Şöbəsi və rayon



Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər və dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**13 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonunda "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**14 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Beyləqan rayonu İmamverdili kənd A.Quliyev adına tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Heydər Əliyev Mərkəzində "Milli-mənəvi dəyərlərin təbliği və dini maarifləndirmənin effektivliyinin artırılmasında medianın rolu" mövzusunda;

**15 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbə-



sinin təşkilatçılığı ilə Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində "Multikultural cəmiyyətdə məhzəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu və Oğuz peşə məktəbinin birgə təşkilatçılığı ilə Oğuz rayonunda "Nakomaniya və onun fəsadları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və rayon Gİİ-nin birgə təşkilatçılığı ilə Quba rayonu Heydər Əliyev Mərkəzində "İslam dinində zərərli vərdişlərə münasibət" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RİH və Xaçmaz rayonu Qaraqurtlu kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "4 gündən 44 günə: Böyük zəfər yolu" mövzusunda;

**18 aprel** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab rayon Heydər Əliyev Mərkəzi, rayon Mədəniyyət Mərkəzi, Mədəniyyət Nazirliyi Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası Dövlət Xidmətinin Qəbələ regional şöbəsi, Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "İşğaldan



azad olunmuş ərazilərdəki tarixi - dini abidələr və milli-mədəni irsimiz" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və mərkəzi "Cümə" məscidinin nəzdində fəaliyyət göstərən Şəki Mərkəzi Qız Quran kursunun birgə təşkilatçılığı ilə "Qızların təhsildən yayındırılmasının hüquqi və mənəvi məsuliyyəti" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır" mövzusunda;

**19 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Azərbaycan Texnologiya Universitetində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı RİH-in birgə təşkilatçılığı ilə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Oğuz RİH-in birgə təşkilatçılığı ilə "Ramazan ayında dinlərarası münasibətlər: qardaşlıq, birlik və tolerantlıq" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xəzər RİH-in birgə təşkilatçılığı ilə Buzovna qəsəbəsində yerləşən Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil mərkəzində "Aprel döyüşləri: böyük Zəfərin müqəddiməsi" mövzusunda;

**20 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş Dövlət Humanitar Kollecində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, Dövlət Təhlükəsizliyi Xidmətinin rayon şöbəsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Danaçı kənd 2 saylı tam orta məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Azərbaycanda ənənəvi İslam və xarici təsirlər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Dövlət Sərhəd Xidmətinin Lənkəran şəhərindəki "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

davamı səh. 13

# QISA-QISA

əvvəli səh. 12



**21 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Gəncə şəhər Baş Polis İdarəsi və Gəncə şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə 39 saylı tam orta məktəbdə "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Xızı rayon GİI-nin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayon Polis Şöbəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Ramazan ayı günahlara tövbə və səbr ayıdır" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, Quba şəhəri "Ağ məscid" dini icmasının birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara şəhəri M.Ə.Sabir adına 1 saylı tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron rayonunda yerləşən N saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini ekstremist və ayrı-seçkilik çağırışlarının qarşısının alınması, milli-dini dəyərlərin təbliği" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara şəhəri Z.Bünyadov adına 2 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Yeniyetmə, gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda;

**22 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH və Salyan rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə E.Ağayev adına Arbatan kənd tam orta məktəbində "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay rayon Polis Şöbəsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Yeniyetmə, gəncləri radikalizm, ekstremizm təhlükəsindən və zərərli vərdişlərdən qoruyaq!" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH, rayon GİI, Gənclərin Sosial-İqtisadi və Mədəni İnkişafına Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Gənclərin dini radikalizm və ekstremizm meyillərindən qorunması" mövzusunda;

**25 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, İmişli rayon GİI, rayon Təhsil Şöbəsi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin İmişli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya yox, erkən nikah və dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**26 aprel** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Bərgüşad kənd "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı rayonu Dəllər kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağdam RİH və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;

**27 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH, rayon Təhsil Şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə Salyan rayon M.Salmanov adına Xurşud kənd ümumi orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Xızı RİH-in birgə təşkilatçılığı ilə Altıağac qəsəbəsində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Cəlilabad rayonu Mərkəzi Kitabxanasında "Yeniyetmələr və gənclər arasında təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Mərkəzi Cümə məscidinin nəzdində fəaliyyət göstərən Şəki mərkəzi Qız Quran kursunun birgə təşkilatçılığı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Şuşa ili" ilə çərçivəsində "Şuşa zirvəsi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Şəmkir RİH-in birgə təşkilatçılığı ilə "Dinlərarası münasibətlər və tolerantlıq" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər Namiq Allahverdiyev adına 2 nömrəli tam orta məktəb-liseyində "Yeniyetmələr və gənclər arasında təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması" mövzusunda;

**28 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RİH və Xaçmaz Peşə Liseyinin birgə təşkilatçılığı ilə "İslam dinində məişət zorakılığı anlayışı" mövzusunda baş tutub.



DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə gənc nəslin mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirilməsinin vacibliyindən danışılıb. Bildirilib ki, məktəblilərin mənəvi cəhətdən yetişməsi üçün çoxsaylı tədbirlər keçirilməli, onlarla fərdi iş aparılmalıdır. Bu baxımdan, Azərbaycan dövləti mənəvi dəyərlərin təbliğ olunması və ənənəvi dini baxışlarımızın qorunub saxlanması sahəsində layihələr icra etməkdədir.

Tədbirlərdə şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib. Natiqlər vurğulayıblar ki, Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini nümayiş etdirib. 2016-cı ilin aprel ayında və 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə düşmən üzərində parlaq qələbə qazanaraq torpaqlarımız geri alınıb, bu qələbələr şəhidlərimizin qanı və qazilərimizin igidliyi hesabına əldə olunub.

Ölkəmizdə mövcud olan dövlət-din münasibətlərindən bəhs edilən tədbirlərdə Ramazan ayı ilə bağlı qarşıda duran vəzifələr tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Dini icma sədrlərinə və din xadimlərinə tapşırıq və tövsiyələr verilib. Ramazan ayı ilə əlaqədar tədbirlərin QMİ-nin fətvasına uyğun keçirilməsinin vacibliyi vurğulanıb.

Həmçinin tədbirlərdə məişət zorakılığının subyektləri, cəmiyyətdə və məişətdə qadın zorakılığı, zorakılığın formaları, erkən və məcburi nikah barədə ətraflı məlumat verilib. Bildirilib ki, məişət zorakılığına məruz qalanlar əsasən, qadınlar və uşaqlardır. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı görülən tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından da bəhs olunan tədbirlərdə qarşılıqlı müzakirələr aparılıb.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

## İSGƏNDƏRİYYƏDƏ YUNAN-ROMA DÖVRÜNƏ AİD QİYMƏTLİ ABİDƏLƏR TAPILIB

Misirin İsgəndəriyyə şəhərində arxeoloji qazıntılar zamanı yunan-Roma dövrünə aid saxsı emalatxanası və anbar aşkarlanıb.

Misirli arxeoloq Ayman Aşhmavi jurnalistlərə müsahibəsində bildirib ki, emalatxanada böyük gil qab kolleksiyası tapılıb. Anbar binası isə Ptolemey dövründə işçilər üçün yataqxanalardan ibarət olub. Onun daxilindəki 3 otaqdan birində dini ayinlər icra olunub, digəri mətbəx, üçüncüsü isə qab satışı üçün istifadə edilib.

Anbardakı otaqların birinin döşəməsində Makedoniyalı İsgəndərin, tanrı Zevsin və kraliça Kleopatranın təsvirləri olan Ptolemey dövrünə aid sikkələrin böyük kolleksiyası da aşkar edilib.

Eyni zamanda, deformasiyaya uğramış naməlum kral heykəlləri də tapılıb.

## YEDDİ MİN ALİM VƏ TƏLƏBƏ ÜÇÜN NƏZƏRDƏ TUTULAN ÜZƏN ŞƏHƏR

"Meriens" gəmisi nəhəng üzən şəhərdir. Uzunluğu 900 metr və eni 500 metr olan futuristik gəmi dünyanın hər yerindən 7 min alim və tələbə üçün nəzərdə tutulub. Burada yaşamaq tamamilə pulsuz olacaq.

Şəhərdə laboratoriyalar, sinif otaqları, mühazirə zalları, yaşayış yerləri, istirahət və idman zalları fəaliyyət göstərəcək. Şəhərin görünən hissəsi suyun üstündən 60 metr hündürlüyə çıxır, aşağı hissəsi isə 120 metr dərinliyə qədər suyun altında qalır.

Mütəxəssislərin fikrincə, bu layihə sualtı kəşfiyyat dünyasında inqilab edəcək, çünki insanlar okeanla daimi təmasda olacaq, eləcə də şəhərin aşağı hissəsi su altında olduğundan sualtı dünyaya birbaşa çıxış əldə edəcəklər. Şəhər xüsusi qurğular, yeraltı cərəyanın gücü və dalğalar hesabına elektrik enerjisinə olan tələbatını müstəqil şəkildə ödəyəcək.

Layihənin 2050-ci ilə qədər tamamlanması planlaşdırılır.

# İSTANBULDA "İSLAM SİVİLİZASİYALARI MUZEYİ" AÇILIB



Aprelin 8-də İstanbulda "İslam Sivilizasiyaları Muzeyi"nin rəsmi açılış mərasimi olub.

Açılış mərasimində Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyənin bir sıra rəsmi şəxsləri iştirak ediblər.

İstanbulun Böyük Çamlıca Məscid Kompleksinin ərazisində yerləşən və 10 min kvadratmetr qapalı sahədə inşa edilən "İslam Sivilizasiyaları Muzeyi" Türkiyənin Milli Saraylar İdarəsinin tabeliyindəki "Topkapı Sarayı", "Türk və İslam Sənətləri", "İstanbul Arxeoloji", "İstanbul Türbələr", "Vəqflər" və "Saray Kolleksiyaları" muzeylərinin kolleksiyalarından seçilmiş əsərlər əsasında hazırlanıb.

VII- XIX əsrlər arası İslam mədəniyyətinin inkişafını özündə əks etdirən muzeydə 800-ə yaxın əsər sərgilənir. Muzey Türk Toxuculuq Sənəti, Həzrət Peyğəmbərə aid edilən əsərlər, İslam incəsənətində memarlıq və bəzək elementləri, İlk məbəd Kəbə, Şam sənədləri, "Qurani-Kərim" və məhfəzələri, İslamda elm, Əfv və fərmanlar, Hüsnixətt, Tilsimli köynəklər, İslamda fəth, Türk çini sənəti, İslam sikkələri və Osmanlıda geyim kimi mövzuları özündə əks etdirən 15 tematik bölmədən ibarətdir.

"İslam Sivilizasiyaları Muzeyi"ndə 1200 illik tarixin izlərini daşıyan, bir çoxu indiyədək sərgilənməmiş nadir eksponatlar da yer alır.

Muzeyin hazırlanmasında müasir muzeyşünaslıq texnologiyaları əsasında ərsəyə gələn video istehsal və interaktiv sensor ekranlar, lazer işıqları, İslam musiqiləri kimi bir çox elementdən istifadə edilib.

# PAPA FRANSİSK YENİ APOSTOL KONSTİTUSİYASINI QƏBUL EDİB

Papa Fransisk Roma Kuriyasında (papa hakimiyyətinin baş orqanı) islahat məqsədi daşıyan yeni apostol konstitusiyasını qəbul edib. Bu barədə "Vatican News" xəbər verib.

İyunun 5-i Pentikost bayramında (Pasxa bayramından sonra əllinci gün qeyd edilir) qüvvəyə minəcək sənəd 2013-cü il konklavından əvvəl ümumi konqreqasiyalar zamanı başlayan uzun bir prosesin bəhrəsidir. 250 səhifəlik apostol konstitusiyası "Praedicate evangelium" Papa II İohann Pavelin 28 iyun 1988-ci ildə verilmiş "Pastor bonus"unu əvəz edəcək. Əslində, "Praedicate evangelium" son doqquz il ərzində demək olar ki, tamamilə həyata keçirilmiş islahatları təsdiqləyir.

Yeni islahatlardan birini Yevangelizasiya Konqreqasiyası ilə Yeni Yevangelizasiyaya Təşviq üzrə Papa Şurasının vahid Yevangelizm Departamentində birləşməsi təşkil edir. İki idarənin prefektləri proprefektə çevriləcək və Roma Kuriyasının yeni departamentinə birbaşa pontifik özü rəhbərlik edəcək.

Konstitusiyanın ən mühüm məqamlarından biri hər bir xristianın şagird-missioner olduğunun xatırladılmasıdır. Bu baxımdan, istisnasız olaraq hamı, eləcə də ruhani olmayanlar Roma Kuriyasında rəhbər vəzifələrə təyin edilə bilərlər.

Mətndə vurğulanır ki, Kuriya Roma yepiskopuna və Ümumdünya Kilsəsinin, yəni yerli yepiskopluq və yerli kilsələrin xeyrinə xidmət edən bir alətdir.

# SİCİLİYADAKI SÜNİ GÖL FİNİKİYALILARIN QƏDİM MÜQƏDDƏS HOVUZUDUR?

Arxeoloqlar Siciliyanın qərbindəki San-Pantaleo adasındakı 2500 illik süni gölün ulduzların istiqamətinə görə yerləşdiyini və müqəddəs hovuz kimi istifadə edildiyini aşkarlayıblar. Bu barədə "Arkeonews" xəbər yayıb.

İlk dəfə 1920-ci illərdə kəşf edilən hovuz eramızdan əvvəl birinci minillikdə Finikiya limanı olan qədim Motia ada şəhərinin xarabalıqları arasında tapılıb.

Əvvəllər San Pantaleo adasındakı gölün "Koton", yəni süni liman olduğu düşünülürdü. Çünki o, yaxınlıqdakı Karfagendə yerləşən qədim hərbi limanla oxşarlıq təşkil edirdi. Lakin yeni araşdırmalar bunun yanlış olduğunu göstərib.

Tədqiqat Roma Sapienza Universitetinin arxeoloqu, professor Lorenzo Niqro tərəfindən Siciliya Administrasiyası ilə əməkdaşlıq çərçivəsində aparılıb. Onun sözlərinə görə, 2010-cu ildə başlayan qazıntılar tədqiqatçılara süni hovuzu tamamilə qurutmağa imkan verdi. "Bu, onun dənizlə əlaqəsi olmadığı üçün liman kimi xidmət edə bilməyəcəyini göstərdi. Bunun əvəzinə o, təbii mənbələrdən qaynaqlanırdı", – deyə professor Niqro bildirib.

Arxeoloqlar həmçinin "Koton"un kənarlarında əlavə məbədlər, daş plitələr və sütunlar, qurbangahlar, gölün mərkəzində postament aşkar ediblər. Vaxtilə onun üzərində əsasən məhsuldarlıq tanrısı sayılan Baalın heykəli olub.

Finikiyada və onun koloniyalarında Baala sitayiş geniş yayılmışdı. O, Finikiyada fırtınalar və münbitləşdirici yağışların tanrısı, eləcə də kənanlılar və finikiyalılar tərəfindən dənizçilərin himayədarı hesab edilən dəniz tanrısı kimi tanınırdı.

Yeni araşdırma "Antiquity" jurnalında dərc olunub.

# ICESCO İSLAM İRSİ ABİDƏLƏRİNİ BƏRPA VƏ MÜHAFİZƏ ETMƏYƏ ÇAĞIRIB

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (ICESCO) bütün dünyadakı İslam irsi abidələrini bərpa və mühafizə etməyə çağırıb.

Bu fikir təşkilatın Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı bəyanatında yer alıb.

ICESCO-nun müraciətində qeyd olunub ki, mədəniyyətlərarası dialoq çərçivəsində bəşər tarixinə, o cümlədən İslam irsinə məxsus abidələrin vandalizm aktlarından qorunması, onların mühafizəsi və gələcək nəsillərə çatdırılması aktual məsələ kimi qarşıda durur. Bu məqsədlə təşkilatın nəzdində fəaliyyət göstərən İslam Dünyası İrsi Mərkəzi üzv dövlətlərin uyğun hökumət strukturları və vətəndaş cəmiyyəti ilə birlikdə müxtəlif proqramlar həyata keçirir. Artıq 300-dən çox qədim abidə siyahıya alınıb və onların bərpası istiqamətində layihələr hazırlanıb. Bu prosesə müsəlman ölkələrindən olan qədim irs üzrə mütəxəssislər cəlb olunub.

Təşkilatın bəyanatında vurğulanıb ki, silahlı münaqişə zonalarında tarixi abidələrin qorunmasına xüsusi diqqət yetirilməlidir. Bununla yanaşı, arxeoloji abidələrin qanunsuz satışının qarşısını almaq məqsədilə qanunvericilik aktlarında nəzərdə tutulan cəzalar sərtləşdirilməlidir.

"ICESCO tarixi abidələrin bərpası və mühafizəsi işində yüksək texnologiyalardan, xüsusən süni intellektdən istifadənin əhəmiyyətini diqqətə çatdırır. Bu kontekstdə İslam dünyası irsinin interaktiv xəritəsinin tərtib edilməsi zəruri addımdır", - deyə müraciətin sonunda vurğulanıb.

# İSLAMIN İLK MƏSCİDİNDƏ GENİŞ REKONSTRUKSİYA İŞLƏRİ APARILACAQ

Məhəmməd Peyğəmbərin 622-ci ildə Mədinədə tikdirdiyi və İslamın ilk məbədi olan Quba məscidinin sahəsini genişləndirmək məqsədilə burada geniş rekonstruksiya işləri aparılacaq.



"SPA" agentliyi xəbər verir ki, bu barədə məscidi ziyarət edən Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman məlumat verib. O bildirib ki, İslam Peyğəmbərinin tikdirdiyi məscidin ümumi sahəsi 50 min kvadratmetrə çatdırılacaq və burada 66 min nəfər namaz qıla biləcək. Vəliəhd şahzadə diqqətə çatdırıb ki, Quba məscidinin ətrafındakı tikililərdə də bərpa işləri aparılacaq və İslam memarlıq ənənələrinə uyğun kompleks yaradılacaq.

Hicri tarixinin 1-ci ilində tikilən Quba məscidi dindarların ən çox ziyarət etdiyi Peyğəmbər məscidindən 5 kilometr aralıda yerləşir. Yeni rekonstruksiya layihəsində 57 obyektin tikilməsi, o cümlədən bu ibadətgahları birləşdirəcək xiyabanların salınması və müasir avtomagistralın inşası da nəzərdə tutulur.

# PARLAMENTLƏRARASI PRAVOSLAV ASSAMBLEYASI "MÜQƏDDƏS SOFİYA" BEYNƏLXALQ LAYİHƏSİNƏ START VERİB



"TASS" agentliyinin verdiyi xəbərə görə, Parlamentlərarası Pravoslav Assambleyası "Müqəddəs Sofiya" beynəlxalq layihəsinə start verib və dünyanın bir çox şəhərində - Harbindən İstanbula, Polotsk və Kiyevdən Novqoroda qədər tikilmiş 37 "Müqəddəs Sofiya" kilsəsi haqqında kitab nəşr edib. Assambleyanın sədri Sergey Qavrilov jurnalistlərə açıqlamasında bildirib ki, kitab üç dildə nəşr olunub.

"Bu, bütün qitələrdə tikilmiş "Müqəddəs Sofiya" kilsələrinin tarixinə həsr olunmuş ciddi elmi layihədir. Söhbət təkcə İstanbuldakı kilsədən deyil, həm də Rusiya, Belarusiya, Ukrayna şəhərlərindəki kilsədən gedir. Bu kilsələr Serbiya və Bolqarıstanda da mövcuddur, onlar bizim birliyimizin, ümumi məsuliyyətimizin və qarşılıqlı anlaşmamızın simvoludur. Bu, unikal layihədir və biz istərdik ki, onun əsasında Avropa İttifaqının mədəni marşrutlar layihəsi hazırlansın. Biz Rusiya, Belarusiya və Yunanıstanda bu layihəni dəstəkləməyə hazırıq. İtaliyada da belə məbədlər var, Kiprdə, İsgəndəriyyədə də". – deyə Qavrilov açıqlama verib.

"Biz üçqat səylə işləməyə hazırıq. Əsas məqsəd Avropanın xristian kimliyini, dəyərlərimizi qorumaqdır. Biz xristianların hüququnu, ənənəvi ailə maraqları (bu demək olar ki, bütün parlamentlər tərəfindən dəstəklənir) və dəyərlərini, mədəni irsimizi müdafiə edirik və inanırıq ki, sülh üçün mübarizə vəzifəsi indi xüsusilə aktualdır".

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

## Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar

**Cəlilabad rayonu Dələli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi:** 31 mart 2022-ci il
**Qeydiyyat №-si:** 100122A – 957
**Maliyyə ili:** 01 yanvar – 31 dekabr
**Hüquqi ünvanı:** Cəlilabad rayonu, Dələli kənd məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi:** Nəzərov Mürvət Vəlixan oğlu

**Cəlilabad şəhəri Məlik Quliyev küçəsində yerləşən "İmam Zaman" məscidi dini icması**
**Qeydiyyat tarixi:** 31 mart 2022-ci il
**Qeydiyyat №-si:** 100122A – 958
**Maliyyə ili:** 01 yanvar – 31 dekabr
**Hüquqi ünvanı:** Cəlilabad şəhəri, Məlik Quliyev küçəsi,"İmam Zaman" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi:** Mirzəyev Mikayıl İsmayıl oğlu

**Cəlilabad rayonu Ağdaş kəndi "İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi:** 31 mart 2022-ci il
**Qeydiyyat №-si:** 100122A – 959
**Maliyyə ili:** 01 yanvar – 31 dekabr
**Hüquqi ünvanı:** Cəlilabad rayonu, Ağdaş kəndi, "İmam Hüseyn" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi:** Hadıyev Ravi Seydəli oğlu

**Cəlilabad rayonu Göytəpə şəhəri "İmam Zaman" məscidi dini icması**
**Qeydiyyat tarixi:** 31 mart 2022-ci il
**Qeydiyyat №-si:** 100122A – 960
**Maliyyə ili:** 01 yanvar – 31 dekabr
**Hüquqi ünvanı:** Cəlilabad rayonu, Göytəpə şəhəri,Oktay Eynullayev küçəsi, "İmam Zaman" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi:** Fəhradov Ağamusa Xanoğlan oğlu

**Masallı rayonu Hişkədərə kəndi "İmamzadə" ziyarətgahı dini icması**
**Qeydiyyat tarixi:** 31 mart 2022-ci il
**Qeydiyyat №-si:** 100122C – 961
**Maliyyə ili:** 01 yanvar – 31 dekabr
**Hüquqi ünvanı:** Masallı rayonu, Hişkədərə kəndi, "İmamzadə" ziyarətgahı
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyyət predmeti və məqsədi:** Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi:** Nəriman Qulam oğlu Qafarov

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatları

**"Zərdab rayonu Alıcanlı kənd məscidi" dini icması**
**Qeydiyyat tarixi:** 24 noyabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2-29

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qəribov Zabit Yusif oğlu, Ağayev Musa Dadaş oğlu, Bayramov Şarab Şamil oğlu, Əliyev Xanhüseyn Piralı oğlu, Həmidov Surət Mikayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Muradov Ceyhun Dünyami oğlu, Nəcəfov Seyfəddin Nəsrəddin oğlu, Mustafayev Bədrəddin Ağababa oğlu, Mehdiyev Samir Şıxəli oğlu, Mehdiyev Aqil Şahalı oğlu, Ağayev Cəbrayıl Cəbrayıl oğlu, Cavadov Cahid Əfqan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Qəribov Zabit Yusif oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Mehdiyev Aqil Şahalı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 28 fevral 2022-ci il

**"Lerik rayonu Sipyəreğon kənd məscidi" dini icması**
**Qeydiyyat tarixi:** 24 aprel 2015-ci il
**Qeydiyyat №-si:** 100115C-587

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rzayev Haciəli Abış oğlu, Musayev Nəsrulla Ələkbər oğlu, Hüseynov Həsənağa Şəvəqqət oğlu, Hüseynov Rafiq Həsənağa oğlu, Fətullayeva Xanımağa Seydəli qızı, Rzayeva Qızbaci Yunus qızı, Rzayeva Vəsmican Rza qızı, Rzayeva Sərnaz Mirzağa qızı, Hüseynov Araz Əliniyaz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Hüseynov Hüseyn Sabir oğlu, Musayev Şahbala Səyədulla oğlu, Rzayev Elşən Mahi oğlu, Musayeva Elnurə Bəxtiyar qızı, Rzayeva Zəminə Nəsurulla qızı, Musayev Bəxtiyar Səyədulla oğlu, Hüseynov Rizvan Əli oğlu, Rzayeva Nayimə Sahib qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Hüseynov Araz Əliniyaz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Rzayev Ənvər Mirzəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**12 aprel 2022-ci il

# HƏR YENİ YAŞAYIŞ KOMPLEKSİNDƏ XRİSTİAN MƏBƏDİ TİKİLƏCƏK

"Fides"in məlumatına görə, Misir prezidenti Əbdülfəttah əl-Sisi hər yeni yaşayış kompleksində xristian məbədinin tikintisi ilə bağlı qanunu təsdiqləyib. Qanuna əsasən, hətta həmin yaşayış məntəqələrində xristian prixodlarının sayı hələlik az olsa belə, kilsənin tikintisi hər bir tikinti layihəsinə və şəhərin baş planına daxil edilməlidir.

Prezident ölkənin siyasi rəhbərliyi tərəfindən təsdiq edilmiş proqram çərçivəsində şəhərin kütləvi yeni tikinti planlarına cavabdeh olan hökumət rəsmiləri ilə keçirdiyi görüşdə bu mühüm strategiyanın məqsədlərini açıqlayıb. "Harada məscid varsa, orada kilsə də tikilməlidir. Bu və ya digər yeni binada tikilməkdə olan kilsəyə hətta hələlik yüz xristian toplanırsa belə, o, yenə də baş plana salınmalı və tikilməlidir. Qoy, ölkə vətəndaşlarının heç biri bundan sonra mənzillərdə toplaşaraq onları ev kilsələrinə çevirməsin", - deyə o, yerlərdə ümumi tikinti planlarına olan tələblərdən danışıb..

Prezidentin yeni bəyanatı Misirdə mövcud olan kilsə ruhaniləri və kilsə icmalarının ruhani olmayan üzvləri tərəfindən müsbət qarşılanıb. Misirli analitiklərin fikrincə, məqsəd müsəlman, xristian, eləcə də azlıq təşkil edən bütün vətəndaşlara öz dindaşları ilə birlikdə ibadət, bayram və ayinləri keçirmələri üçün bərabər imkanlar təmin etməkdir.

Misir siyasi hakimiyyətinin tikinti və mədəniyyət sahəsində işləyib hazırladığı və hazırda tətbiq etdiyi təlimatlar bu ölkədə həmişə yeni kilsələr tikmək cəhdlərinin səbəb olduğu çoxsaylı çəkişmələr, mübahisələr və hətta iğtişaşlar baxımından xüsusilə vacibdir. Belə ki, 2016-cı ilə qədər yeni xristian ibadət yerlərinin tikintisi ilə bağlı bütün layihələr "on qayda" adlanan qanunla dayandırılır və ya ləğv edilirdi. Bu "10 qayda"nın mövcud olduğu onilliklər ərzində xristianlar əllərində bütün lazımi sertifikatlar və icazələr olmadan Misirdə yarımqanuni kilsə və sovmələr tikirdilər. Son onilliklərdə yerli xristian icmaları tərəfindən möhkəm qanuni əsas olmadan ucaldılan bu ibadət binaları radikallar tərəfindən davamlı olaraq nifrət və məzhəb zorakılığını qızışdırmaq üçün istifadə olunurdu. Ona görə də 2016-cı ilin avqustunda Misir Parlamenti tərəfindən ratifikasiya edilmiş ibadət yerləri haqqında yeni qanun qanunvericilik qarışıqlıqları illərində lazımi icazələr olmadan tikilmiş xristian ibadət yerləri üçün sistemli "leqallaşdırma prosesi" başlatmış oldu.

# ROMADAKI SAKSA RUBRA MƏQBƏRƏLƏRİ İLK DƏFƏ İCTİMAİYYƏTƏ AÇIQ ELAN OLUNUB



Müasir Roma şəhərinin şimal ətraflarındakı iki qədim məqbərə - Saksa Rubra məqbərələri hər ayın üçüncü cümə axşamı günü ziyarətçilərin ixtiyarına verilib. Bu barədə "The history blog" məlumat yayıb.

Via Flaminiya boyunca müasir tikililərlə əhatə olunmuş II əsrə aid bu məzarlar çox az tanınır, Romanın tarixi abidələrinin son dərəcə heyrətləndirici sıxlığı arasında onların fərqinə varmamaq mümkündür, lakin onlar böyük arxeoloji əhəmiyyətə malikdir.

Məzarların hər ikisi qırmızı tufdan oyulub, buna görə də Saksa Rubra ("Qırmızı Mağara" mənasını verir) adlandırılmışdır.

Yazılardan bəlli olur ki, məzarlardan ən böyüyü Kvint Nazoni Ambros və onun həyat yoldaşı Nazoni Urbikaya aiddir. Onların hər ikisi Nazoni ailəsinin azad etdiyi qullardır. Bu türbə 1674-cü ildə aşkar edilmişdir.

1923-cü ildə tapılan ikinci qəbir isə Fadilla adlı qadına məxsusdur. Qapının yanında yazılmış mərmər lövhə onun sevimli ərindən xatirədir.

CƏMİYYƏT və DİN

№ 04 (366) APREL 2022-ci il


# BOSNİYA VƏ HERSEQOVİNANIN MOSTAR ŞƏHƏRİNDƏ BAZAR GÜNLƏRİ İŞLƏMƏK QADAĞAN EDİLİB



Bosniya və Herseqovinanın Mostar şəhərində bazar günləri işləmək rəsmi olaraq qadağan edilib.

Mostar Bələdiyyəsi qadağaya əməl etməyən obyekt və mağazaların 1500 avroyadək cərimə olunacağını açıqlayıb. Bələdiyyə sədri Mario Kordiç qadağanın məqsədinin şəhərdəki hər kəsin bazar günlərini ailələri ilə birgə keçirməsinə şərait yaratmaq olduğunu bildirib.

Qeyd edək ki, Mostar Bosniya və Herseqovina ərazisində sahəsinə görə beşinci ən böyük şəhərdir. Şəhər öz adını Neretva çayı üzərində olan "Mostar körpüsü"ndən götürüb.

# ALİMLƏR AYIN GÖRÜNƏN HİSSƏSİ İLƏ O BİRİ ÜZÜ ARASINDA FƏRQİ İZAH EDİBLƏR



Yeni tədqiqatın nəticəsinə görə, Yer peykinin tərəfləri arasında fərq qədim nəhəng zərbə ilə bağlıdır.

Ayın görünən üzü onun Yer ətrafında dövr etməyən hissəsindən çox fərqlənir. Yer peykinin bizə görünən tərəfində Ay dənizləri – qədim lava axınlarının qalıqları olan tünd ləkələr üstünlük təşkil edir. Peykin əks tərəfində isə çoxsaylı krater (vulkan ağzı) mövcuddur və praktik olaraq Ay dənizləri yoxdur. Alimlər uzun illərdir ki, Ayın iki tərəfinin niyə fərqli olduğunu izah etməyə cəhd göstərirlər. İndi onların yeni fərziyyəsinə görə bu, Ayın cənub qütbündə milyard illər bundan əvvəl baş verən nəhəng zərbə ilə bağlıdır.

Braun Universitetindən olan alimlər kompüter modelləşdirilməsinin köməyi ilə Ayın səthində uzaq keçmişdə, hər hansı vulkanik fəallığa qədər nələrin baş verdiyini öyrənməyi qarşılarına məqsəd qoyublar. Tədqiqatçılar Ayın səthində güclü zərbə canlandırıblar. Bu zərbə milyard illər bundan əvvəl Ayı dəyişib və peykin o biri üzünün cənub hissəsində nəhəng krater əmələ gəlib.

Nəticədə alimlər araşdırıblar ki, böyük kosmik obyektlə toqquşma çox iri istilik şleyfi yaratmalı idi. Bu şleyf Ayın görünən hissəsinə nadir torpaq elementlərini və istilik ayıran elementləri ötürüb. Elementlərin bu qatılığı vulkanizmin və lava axınının əmələ gəlməsinə şərait yarada bilərdi. Lakin Ayın görünməyən tərəfində bu proseslər baş verməyib.

Alimlərin sözlərinə görə, yeni tədqiqatın nəticələri Yer peykinin ən əsas anlaşılmazlıqlarından birinə cavab verir. Lakin hələlik bu, yalnız fərziyyədir və onu yoxlamaq üçün əlavə tədqiqatlar zəruridir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (May - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:51 | 21:00 |
| 2 | 04:08 | 05:39 | 12:38 | 17:33 | 19:52 | 21:01 |
| 3 | 04:07 | 05:38 | 12:38 | 17:34 | 19:53 | 21:03 |
| 4 | 04:05 | 05:37 | 12:37 | 17:34 | 19:54 | 21:04 |
| 5 | 04:03 | 05:36 | 12:37 | 17:35 | 19:55 | 21:06 |
| 6 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:56 | 21:07 |
| 7 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:57 | 21:08 |
| 8 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:58 | 21:10 |
| 9 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:59 | 21:11 |
| 10 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 20:00 | 21:12 |
| 11 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 20:01 | 21:14 |
| 12 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 20:02 | 21:15 |
| 13 | 03:51 | 05:27 | 12:37 | 17:39 | 20:03 | 21:17 |
| 14 | 03:50 | 05:26 | 12:37 | 17:40 | 20:04 | 21:18 |
| 15 | 03:48 | 05:25 | 12:37 | 17:40 | 20:05 | 21:19 |
| 16 | 03:47 | 05:24 | 12:37 | 17:41 | 20:06 | 21:21 |
| 17 | 03:46 | 05:23 | 12:37 | 17:42 | 20:07 | 21:22 |
| 18 | 03:44 | 05:22 | 12:37 | 17:42 | 20:08 | 21:23 |
| 19 | 03:43 | 05:21 | 12:37 | 17:43 | 20:09 | 21:25 |
| 20 | 03:42 | 05:20 | 12:37 | 17:43 | 20:10 | 21:26 |
| 21 | 03:40 | 05:20 | 12:37 | 17:44 | 20:11 | 21:27 |
| 22 | 03:39 | 05:19 | 12:37 | 17:44 | 20:12 | 21:28 |
| 23 | 03:38 | 05:18 | 12:37 | 17:45 | 20:13 | 21:30 |
| 24 | 03:37 | 05:17 | 12:37 | 17:45 | 20:14 | 21:31 |
| 25 | 03:36 | 05:17 | 12:37 | 17:46 | 20:15 | 21:32 |
| 26 | 03:35 | 05:16 | 12:38 | 17:46 | 20:16 | 21:33 |
| 27 | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:34 |
| 28 | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:36 |
| 29 | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:18 | 21:37 |
| 30 | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:19 | 21:38 |
| 31 | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:20 | 21:39 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNƏ GÖRƏ TƏHSİLİNİ DAVAM ETDİRƏ BİLMƏYƏN 90 YAŞLI QADIN YENİDƏN MƏKTƏBƏ QAYIDIB



İkinci Dünya müharibəsi səbəbindən təhsilini davam etdirə bilməyən 90 yaşlı italyan Annunziata Murgia orta təhsil haqqında şəhadətnamə almaq üçün yenidən məktəbə qayıdıb. O, orta məktəbə gedən ən yaşlı şəxs kimi tarixə düşüb.

A.Murgia adətən 14 yaşdan yuxarı olanların orta təhsil haqqında şəhadətnamə almaq üçün iştirak etdikləri imtahana hazırlaşmaq üçün hazırda evinin yaxınlığındakı gecə məktəbinə gedir. İkinci Dünya müharibəsi dövründə ancaq maddi vəziyyəti yaxşı olanların təhsil ala bildiyini deyən A.Murgia həmin vaxt tikişlə məşğul olduğunu və bu yolla ailəsinə maddi dəstək verdiyini bildirib.

A.Murgianın ən kiçik sinif yoldaşı hazırda orta məktəb şəhadətnaməsini almaq üçün yenidən imtahana hazırlaşan 16 yaşlı şagirddir.

## Yadigar söz

**M.S.Ordubadi**
*(nasir, şair, dramaturq)*

*Bir xalqın tarixi və milli əzəməti çürüməz və məhvedilməz bir cavahirdir.*


Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894